# Hakim Qalib Paşayevin adı hallanan dələduzluq faktı

# Hürriyyət

SİZİN ÜÇÜN QƏZET

№02 (3341) 14 Yanvar / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymət: 60 qəpik


ANA XƏBƏR



**Elman Paşayevin adı daha bir dələduzluqda hallanır**

# Üçüncü dünya savaşının bir addımlığında

## ABŞ və ÇİN-in Arktika uğrunda mübarizəsi böyük fəlakətlərə yol aça bilər




**Rusiya Ukraynanı nə qədər vaxta işğal edə bilər?** 9

GÜNÜN NƏBZİ

Xəbər

**Samir Şərifovu nazirin qardaşı əvəz edir...**



Maliyyə Nazirliyində 3 müavin vəzifəsi boş qalıb 2

Xəbər

**ADP korrupsioner məmurların cəzasız qalmasına etiraz etdi**

“Korrupsiyada ittiham olunan məmurlara verilən şərti cəza korrupsiyaya təşviqdir” 2

Cəmiyyət

**Bəxtiyar Hacıyevə ağır cəza verildi**

O, 10 il müddətə azadlıqdan məhrum edildi 4

Ölkə

**Şəhid anasını təhqir etdi, oğlunu işdən çıxardı...**

Qəbələ xəstəxanasının direktor müavini Fikrət Cəfərov haqda şok iddialar 15

Ölkə

**Qazax sakini oğluna əlillik verilməməsindən şikayətlənir**

“Oğlum Polad Həşimovun yanında yaralanan və yeganə sağ qalan “maxe” əsgərdir” 15

LAYİHƏ

**Narkomaniyadan xilas yolları...**

Klinik psixoloq Leyla Məmişova: “Dövlət narkomanların ailələrinə də psixoloji dəstək verməlidir”



11

Aktual

**Qorxu və stressi necə aradan qaldırmaq olar?**

Abdulla Şıxlınski: “Bəzi insanlar ömür boyu psixiatrın nəzarətinə möhtac olur”



5

Hüquq

**Həbsxanada zorlanmasın deyə intihara cəhd etdi**

Məhbus Aslan Kovazov iki “dırnaqtutan” udmağa məcbur edilib

Xaçmaz rayon sakini, hazırda məhbus həyatı yaşayan Aslan Kovazov 20 ildən artıqdır ki, Maştağa ruhi əsəb dispanserində qeydiyyatdadır. Hər 6 aydan bir mütəmadi olaraq müalicələrdə olub. Aslan Kovazov artıq 2 il 6 aydır ki, həbsdədir. Həbs olunmamışdan qabaq ailəli olub, 2 övladı var. Oxumayazması yoxdur. Həbs olunandan sonra ona məxsus torpaq sahələri satılıb, yoldaşı isə başqa birinə qoşulub gedib... 6

Fakt

**Qələbələrimiz kimi, faciələrimiz də keçmişi unutmağa qoymur...**

1997-ci il, may ayının 15-də Gəncədə qəzaya düçar edilən “Jak-40” təlim təyyarəsində həlak olan 6 pilotu unutmadıq, untmayacağıq

Dekabrın 25-də “Azərbaycan Hava Yolları” aviaşirkətinə məxsus olan J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən “Embraer 190” təyyarəsi Rusiyanın qəfil hücumuna məruz qaldı. Nəticədə, ciddi zədə alan təyyarəmiz təcili eniş zərurəti ilə bağlı Qazaxıstan istiqamətinə yön alaraq, Aktau şəhəri yaxınlığında qəzaya uğradı. Bu qəza təkcə Azərbaycan xalqını yox, bütün dünyanı silkələdi. 12

SİZİN ÜÇÜN QƏZET

# Hürriyyət

№02 (3341) 14 Yanvar / 2025-ci il Həftədə 1 dəfə çıxır Qiymәti: 60 qәpik

*Əyləncə səhifəsi*

## Həbib təyyarədən qovulmasından danışdı

**Srağagün Los-Ancelesə uçan təyyarədən endirilən UFC döyüşçüsü Həbib Nurməhəmmədov hadisəyə münasibət bildirib.**



O, oturduğu yerin dəyişdirilməsini xahiş edən stüardessanın davranışını təxribat adlandırıb.

İdmançı qeyd edib ki, o, Alyaska Hava Yolları ilə deyil, Frontier Hava Yolları ilə uçurmiş. Həbib iddia edir ki, stüardessa əvvəlcə ona qarşı çox kobud davranıb. Nurməhəmmədov qeyd edib ki, o, “sakit qalmaq və təxribata uymamaq üçün mümkün olan hər şeyi edib” və insanları “daha ??mehriban olmağa” çağırıb.

“Mən düzgün ingiliscə danışsam və hər şeyi başa düşsəm də, o, məni oturduğum yerdən durğuzmaqda israr etdi. Bunun nə səbəbi var idi - irqi, milli və ya başqa, mən dəqiq deyə bilmərəm”, - o, “nstaqramda yazıb.

Həbibin sözlərinə görə, qısa söhbətdən sonra stüardessa mühafizəyə zəng edib və idmançı təyyarədən endirilib. Nurməhəmmədov əlavə edib ki, saat yarım sonra başqa təyyarəyə minib.

Qeyd edək ki, hadisə ötən gün baş verib. Belə ki, idmançıya təcili çıxışın yanında yer verilib. Stüardessa Həbibdən fövqəladə hallar zamanı sərnişinlərə kömək etməyə hazır olub-olmadığını soruşub. Nurməhəmmədov cavab olaraq anlaşılmaz nəsə mızıldanıb, sonra stüardessa ondan başqa yerə keçməyi xahiş edib. Lakin idmançı bu xahişə tabe olmayıb. Nəticədə mübahisə yaranıb. Kabinəyə nəzarətçi çağırılıb və Həbibdən təyyarəni tərk etməsi istənilib.

# “İlon Maskı Ağ Evdən qovduracağam”





## Trampın keçmiş müşaviri: "O, həqiqətən pis adamdır..."

**ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampın keçmiş müşaviri Stiv Bannon İtaliyanın “Corriere della Sera” qəzetinə müsahibəsində İlon Maskın Ağ Evdən “qovulacağına” söz verib.**

Bannon bildirib ki, o, “Tesla” və “SpaceX”-in baş direktoru İlon Maskı Tramp administrasiyasından kənarda saxlamağı şəxsi missiyasına çevirib.

“O, həqiqətən pis adamdır, çox pis adamdır. Bu adamı dayandırmağı öz missiyam elan etdim. Əvvəllər, o, pul xərclədiyinə görə mən buna dözməyə hazır idim, lakin daha dözmək istəmirəm”, - Bannon bildirib.

Bannon həmçinin deyib ki, Cənubi Afrikada doğulmuş, ABŞ vətəndaşı olan milyarder Mask, yüksək ixtisaslı xarici texnoloqları işə götürmək üçün H-1B viza proqramından istifadəni açıq şəkildə müdafiə etdikdən sonra öz ölkəsinə geri qayıtmalıdır.

Bannonun Maska hücumu Tramp tərəfdarları arasında Silikon Vadisində əcnəbi işçilərin rolu ilə bağlı yaranmış fikir ayrılığı fonunda baş verib. Keçən ay Trampın Hindistan-Amerika vençur kapitalisti Sriram Krişnanı süni intellekt üzrə məsləhətçi təyin etmək qərarı açıqladıqdan sonra qalmaqal qopub. İfrat sağçı MAGA tərəfdarları bu təyinatı H-1B vizalarının təsdiqi kimi şərh edərək sui-istifadə halı olduğunu bildiriblər.

ABŞ vətəndaşı olmadan əvvəl H-1B vizasına sahib olan Mask, Silikon Vadisində çalışan xarici işçiləri tənqid edərək, onlara qarşı ”təsəvvür edə bilməyəcəyiniz dərəcədə müharibə elan edəcəyini” vəd edib. Tramp ilk səlahiyyət müddətində H-1B vizalarını məhdudlaşdırmaq üçün addımlar atsa da, o, sonradan Maskın şərhlərini təkrarlayaraq, vizaları “böyük proqram” adlandırıb.

Trampın ilk dövründə Ağ Evin baş strateqi vəzifəsini icra edən Bannon verdiyi müsahibədə Maskın yetkinlik yaşına yenicə çatmış gənc səviyyəsində olduğunu deyib və onu qlobal miqyasda texno-feodalizm yaratmağa çalışmaqda ittiham edib: “Biz pik Elonu gördük, onun özünə xidmət edən təbiəti var, yeganə məqsədi isə trilyonçu olmaq idi. O, şirkətlərinin qorunmasını və ya daha yaxşı bir müqavilə əldə etməsini, daha çox pul qazanmasını təmin etmək üçün hər şeyi edəcək. Var-dövlət toplamaq, sonra isə sərvət vasitəsilə güc əldə etmək: onun diqqət mərkəzində olduğu şey budur. Ölkədəki amerikalı işçilər bunun tərəfdarı olmayacaqlar”.

400 milyard dollardan çox sərvəti ilə dünyanın ən varlı adamı sayılan Mask Trampın ən güclü və nüfuzlu müttəfiqlərindən birinə çevrilib. Tramp onu sahibkar Vivek Ramasvami ilə birlikdə Hökumətin Səmərəliliyi Departamentinə rəhbərlik etməyi tapşırıb.

# Bu tarixdə eyni anda altı və yeddi planet görmək mümkün olacaq...

**2025-ci ilin yanvar və fevral aylarında astronomlar və ulduzları seyr etmək həvəskarları nadir kosmik hadisəni müşahidə etmək üçün unikal imkan əldə edəcəklər.**

Lent.az-ın xarici mediaya istinadla xəbərinə görə, yanvarın 21-də yeddi planetin Günəş ətrafında düzülüşü baş verəcək. Venera, Mars, Yupiter, Saturn, Uran və Neptun Yerdən eyni vaxtda görünəcək.

Fevralın 28-də isə Günəş sisteminin yeddi planeti görünəcək. Saturn, Merkuri, Neptun, Venera, Uran, Yupiter və Mars düzüləcək. Astronomlar bu hadisəni böyük planetar birləşmə adlandırırlar.

Bu möhtəşəm səma şousu Kainatın sirləri ilə maraqlananlar üçün əsl hədiyyə olacaq. Yalnız Uran və Neptun durbinlə, qalanları isə o olmadan görünə bilər.

Bu planetlərin eyni xəttdə olduğu təəssüratı yaranır. Bu, Günəş sistemindəki bütün planetlərin ekliptik boyunca Günəş ətrafında fırlandığı üçün baş verir.

Bəzi planetlərin orbitləri ekliptikadan bir qədər yuxarıda və ya aşağıdadır, lakin onların hamısı eyni səviyyədədir.

Bəzən planetlər öz orbitlərində hərəkət edərkən Günəşin eyni tərəfində olurlar. Məhz buna görə də Yerdəki insanlar onu eyni anda səmada görə bilirlər.



**Təsisçi:**
Sərdar Cəlaloğlu

**Baş redaktor:**
Vüqar Məmmədov
Tel: 070 333 22 85
012 496 98 93
E-mail: vuqar-mt@mail.ru

**Dizayner:**
Seymur Həsənov

“Hürriyyət” qəzetinin internet unvanı:
**Hurriyyet.az**
E-mail: hurriyyet@mail.ru
**Tiraj: 2500**

**Redaksiyanın ünvanı:**
AZ 1008, Bakı, akademik
Ələşrəf Əlizadə küçəsi, 31
Telefonlar: 496-10-72; 496-08-35

Lisenziyanın qeydiyyat nömrəsi: V 165
Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.
Əlyazmalar geri qaytarılmır.
Redaksiyanın kompüter mərkəzində yığılıb səhifələnir və “Futbol+ servis” mətbəəsində çap edilib.

Bu işarə altında dərc olunan yazılar reklam xarakterlidir.

Qəzet 1991-ci ildən çıxır.

# Alışanovun oğlunun məhkəməsi başlayıb

**İnvestisiya fəaliyyəti ilə məşğul olan platformada valyuta alqı-satqısı həyata keçirməklə gəlir əldə etmək istəyən üç nəfərin külli miqdarda pulunu ələ keçirməkdə təqsirləndirilən Nizami Alışanın cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**



Dünən Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Aytən Əliyevanın sədrliyi ilə keçirilən hazırlıq iclasında təqsirləndirilən şəxsin vəkili vəsatətlə çıxış edib.

Vəkil işin baxışa verilməməsini və prokurorluğa qaytarılmasını istəyib. Bildirib ki, istintaqda pozuntulara yol verilib: "İstintaq zamanı Cinayət Prosessual Məcəlləsinin tələbləri pozulub. Cinayət işi nömrələnməyib, müvəkkilim işlə tanış edilməyib. Bu, pozuntudur. İşin yenidən prokurorluğa qaytarılmasını xahiş edirəm".

Dövlət ittihamçısı isə bildirib ki, sadalanan nüanslar işin prokurorluğa qaytarılması üçün əsas deyil. Prokuror cinayət işinin baxışa verilməsini təklif edib. Məhkəmə vəsatəti təmin etməyib. Məhkəmənin baxış iclası yanvarın 27-nə təyin olunub. (apa) Qeyd edək ki, iş üzrə zərərçəkən qismində 3 nəfər - Zeynal Mütəllim oğlu Usubov, Babək Məhəmməd oğlu Məmmədzadə və Yadigar Şibi oğlu İsrafilov tanınıb.

Təqsirləndirilən Nizami Alışan asan pul qazanmaq istəyən şəxslərə özünü səhm və valyuta alqı-satqısı ilə məşğul olan mütəxəssis kimi təqdim edib. Bununla da o, Babək Məmmədzadənin 1 milyon 300 min, Zeynal Usubovun 945 min, Yadigar İsrafilovun isə 200 min dollar pulunu ələ keçirib. Zərərçəkmişlərə dəyən ümumi ziyan 2 milyon 445 min dollar (4 milyon 156 min 500 AZN) təşkil edir.

Ona Cinayət Məcəlləsinin 178.4-cü (dələduzluq - xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə) maddəsi ilə də ittiham irəli sürülüb.

Qeyd edək ki, Nizami AzTV-nin keçmiş sədri Arif Alışanovun qardaşı oğludur. Onun 4 il əvvəl vəfat etmiş atası Akif Alışanov da yüksək vəzifələrdə çalışıb. O, uzun illər polkovnik rütbəsi ilə Sumqayıt Mühafizə İdarəsinin rəisi işləyib. Sonuncu dəfə isə Müdafiə Sənayesi Nazirliyinin Mühafizə və təhlükəsizlik şöbəsinin rəisi kimi fəaliyyət göstərib.

# ADP korrupsioner məmurların cəzasız qalmasına etiraz etdi

## "Korrupsiyada ittiham olunan məmurlara verilən şərti cəza korrupsiyaya təşviqdir"




**Dünən ADP İdarə Heyətinin toplantısı keçirilib. Partiyanın mətbuat xidmətindən "Hürriyyət"ə verilən məlumata əsasən, toplantı iştirakçıları Qroznı səmasında baş verən təyyarə qəzası ilə bağlı məsələyə bir daha münasibət bildirib. Demokratlar Rusiya tərəfindən törədilən bu hadisənin beynəlxalq istintaq komissiyası tərəfindən araşdırılmasının vacibliyini qeyd edib, dövlətimizin terror mahiyyətli bu işin üstündə axıra qədər durmasının vacibliyini diqqətə çatdırıb.**

İdarə Heyəti Azərbaycanla Ermənistan arasında yekun sülh sazişinə dair razılaşmaların davam etdirilməsi istiqamətində ardıcıl xəttin davam etdirilməsinin vacibliyinə də diqqət çəkib. Partiya 2025-ci ildə bu işin daha optimal şəkildə aparılması, Azərbaycan tərəfindən irəli sürülən şərtlərin qəbul edildiyi halda iki ölkə arasında vasitəçilər olmadan razılaşmalar əldə edilməsi üçün bütün diplomatik və siyasi resursların işə salmağı vacib hesab edib. ADP yetkililəri Ermənistan baş naziri Nikol Paşinyanın ATƏT-in Minsk qrupunun ləğv edilməsi ilə bağlı Azərbaycan tərəfinin rəyinin nəzərə alınmasını gündəmə gətirməsini təqdir edib və bu cür jestlərin yekun sülh sazişinin bağlanmasına stimul olacağına inamını ifadə edib.

İdarə Heyəti son vaxtlar Qərb institutları, o cümlədən ABŞ-la münasibətlərin yaxşılaşdırılması istiqamətində atılan addımların gərəkli olduğunu, dövlət başçısı İlham Əliyevin ABŞ-la strateji müttəfiqlik sahəsində qarşı tərəfin istəklərinə uyğun Azərbaycanın addımlar ata biləcəyini gündəmə gətirməsini təqdir edib və bu addımları ölkəmizin xarici siyasətində Qərbə inteqrasiyanın prioritetləri ilə uyğunluq təşkil etdiyini diqətə çatdırıb.

İdarə Heyəti Naxçıvanda dövlət məmurlarının korrupsiya və rüşvətxorluq faktları üzrə başlanan məhkəmə işlərinin yekunu olaraq korrupsiyada əli olan şəxslər barədə məhkəmənin çıxardığı şərti cəza qərarının edilən əməllə adekvat olmadığını qeyd edib və bu cür yumşaq qərarların dövlət məmurlarının korrupsiya və rüşvətə təşviq edilməsi kimi qiymətləndirib.

İdarə Heyəti ictimai fəal Bəxtiyar Hacıyev barədə məhkəmənin çıxardığı 10 il həbs cəzasını ədalətsiz, qərəzli qərar kimi dəyərləndirib, bu cür qərarların ölkədə vətəndaş həmrəyliyinə, vətəndaş dövlət bağlılığına xidmət etmədiyini, insan hüquq və azadlıqları ilə bağlı ölkəmizin üzərinə götürdüyü öhdəliklərə zidd olduğunu bildirib və dövlət başçısını ölkədə siyasi məhbus probleminin köklü həlli üçün humanist addımlar atmağa çağırıb.

İdarə Heyəti son günlər bir sıra nazirlərin işdən azad edilməsi, onların yerinə mənfi reputasiyaya malik kadrların təyin edilməsi faktına diqqət çəkərək ölkədə yeridilən kadr siyasətinin heç də düzgün aparılmadığını qeyd edib, kadrların peşə hazırlığı, dövlətə, xalqa sədaqət prinsipinə uyğun deyil, şəxsi sədaqət prinsipi ilə seçilməsindən narahat olduğunu bildirib və hakimiyyəti kadr siyasətində beynəlxalq təcrübəyə söykənən meyarlara əsaslanmağa çağırıb.

İdarə Heyəti son vaxtlar səhiyyə sistemində kök salan rüşvətxorluq, korrupsiya, həkimlərin müvafiq sertifikasiya olmadan tibbi əməliyyatlar keçirməsi, nəticədə bir neçə şəxsin ölümü ilə nəticələnməsi, səhiyyə sisteminin biznes strukturuna çevrilməsi faktlarından narahatçılığını bildirib və hakimiyyəti ölkə əhalisinin sağlamlığını qorumaq missiyasını üzərinə götürən bu sahəyə nəzarəti gücləndirməyə çağırıb.

**KƏNAN**

# Azərbaycan əsilli sabiq vəkilin adı daha bir dələduzluqda hallanır



**Azərbaycan əsilli sabiq vəkil Elman Paşayevə ikinci dələduzluq epizodu üzrə ittiham irəli sürülüb.**

TASS xəbər verir ki, bu barədə təqsirləndirilən şəxsin həbs müddətinin uzadılması məsələsinin həll olunduğu Moskva Qarnizon Hərbi Məhkəməsində elan olunan cinayət işinin materiallarında qeyd olunub.

"Sizə qarşı iş qaldırılıb və şübhəli şəxs elan edilirsiniz", - hakim bildirib.

İşdə zərərçəkmiş qismində iclasda iştirak etməyən Zaxarov soyadlı şəxs keçir.

Bildirilib ki, Paşayev heç bir epizod üzrə özünü təqsirli hesab etmir. Hərbi məhkəmənin iclası qapalı olacaq.

# Samir Şərifovu nazirin qardaşı əvəz edir...

## Maliyyə Nazirliyində 3 müavin vəzifəsi boş qalıb

**Azərbaycanda Maliyyə Nazirliyində ciddi dəyişikliklər baş verib. Hurriyyet.az xəbər verir ki, hazırda nazir vəzifəsini müvəqqəti icra edən şəxs Azər Bayramovdur.**

O, 2004-cü ildən bu yana Maliyyə Nazirliyində nazir müavini kimi fəaliyyət göstərir.

Qeyd edək ki, Azər Bayramov Xarici İşlər naziri Ceyhun Bayramovun qardaşıdır. Xatırladaq ki, yanvarın 10-da uzun müddət maliyyə naziri vəzifəsində çalışan Samir Şərifov yeni vəzifəyə, Baş nazirin müavini postuna təyin edilib. O, bu vəzifədə 2006-cı ildən bəri çalışırdı.



S. Şərifovun nazir postundan getməsi və vəzifələrini müavini A. Bayramovun icra etməsi nəticəsində Maliyyə Nazirliyinin strukturu üzrə hazırda nazirin birinci müavini və iki müavinin vəzifələri boş qalıb.

Nazirin keçmiş birinci müavin Ilqar Fətizadə 2022-ci ilin aprelində vəfat edib. Həmin vaxtdan bu vəzifə boşdur. Nazirin digər müavini postu da 2018-ci ildən vakant olaraq qalır. Belə ki, 28 avqust 2018-ci il tarixində nazir maüvini Emin Hüseynov bu vəzifədən azad edilərək, əvvəlcə Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi təyin olunub, sonra ona işğaldan azad edilmiş ərazilər üzrə yeni vəzifə verilib. Nazirliyin əsasnaməsinə əsasən, ümumilikdə bir birinci müavin və üç müavin vəzifəsi nəzərdə tutulur.

Qeyd edək ki, bu barədə ilk məlumatı teleqraf.com saytı yayıb.

Servantesin vaxtilə dediyi "həyat - şahmat partiyasıdır" fikri həqiqətdirsə, onda hər bir adam bu partiyada oyunun taleyini həll edən yeganə qrossmeysterdir... Və hər bir adamın həyatının dəyəri öz partiyasını nə dərəcədə bacarıqla oynaması ilə ölçülə bilər.





Sərdar CƏLALOĞLU

# Həyatının qrossmeysteri

## (Çapay Sultanovun "Şahmat prizmasının içindən..." adlı kitabı haqda düşüncələr)

**XX əsrin əvvəllərindən başlayaraq, universal elm yenidən tarix səhnəsinə qayıdır. Bu elmin fərqi təcrübədə tam kimi təqdim olunan idrak obyektini eyni anda hərtərəfli, yəni müxtəlif elm sahələrinin vəhdətində öyrənməkdən ibarətdir. Universallıq dilimizdə müxtəlif cəhətli, hərcəhətli, hərtərəfli, hər şeyi qavrayan, öz sənətinin bütün ixtisaslarına yaxşı bələd olan işçi mənalarını verir.**

**Yeni dövrdə Azərbaycanda universal elmin tarixi çox da zəngin deyil. Azad Mirzəcanzadənin başçılıq etdiyi universalistlərin siyahısına çox az adamın adını yazmaq olar. Belə alimlərdən biri də geologiya-mineralogiya elmləri doktoru, əməkdar idman və bədən tərbiyəsi xadimi, əməkdar məşqçi, Azərbaycanın maarif əlaçısı, Dünya Şahmat Federasiyasının məktəb və kompüter komissiyalarının üzvü Çapay Əli oglu Sultanovdur. Çapay müəllimin universallıq keyfiyyətinə həm də "Azərbaycanın görkəmli politoloqu" adını da əlavə etmək lazım gəlir.**

***(Əvvəli ötən sayımızda)***

Çapay Sultanovun "Şahmat prizmasının içindən..." adlı kitabının ikinci fəsli "Qrossmeysterlər-siyasətçilər" adlanır. Tarixdə şəxsiyyətin rolu, siyasət və siyasətçi, lider və kütlə kimi dualistik mövzular həmişə sosioloqların sevdiyi mövzulardan olub. Çapay müəllim də siyasi liderlərin siyasi fəaliyyətini şahmat prizmasından təhlil edərək, çox düzgün elmi nəticələrə gəlir. Müəllif kibernetika elminin banisi Horbert Vinerin aşağıdakı fikrini diskursla başlayır. Viner yazır: "Oyun qaydaları kökündən, xeyirxahlıq normalarından fərqli, sadə və amansızdır. Bu, hətta həmin qaydaların ruhunu tutmağa qabil olan, sahmat taxtasında inkişaf edən hadisələri ani olaraq müşahidə edən o istedadlı uşaqlarda belə, heç bir şübhə yaratmır. Oyunçu qələbəyə ən yaxşı yolu seçiminə münasibətdə zaman-zaman güclü şübhə edə bilər, amma onda azacıq da olsa udmaq və ya uduzmaq lazım olmasına şübhə yoxdur". Beləliklə, göründüyü kimi, idarəetmə elminin banisi də oyunlarda idarəetməni şahmat əsasında təhlil edir və hər bir oyunçu üçün qələbə naminə amansızlığın əhəmiyyətinə diqqət edir.

Siyasətdə genosid, represiyyalar, deportasiyalar və bu kimi hallarda siyasi oyunda qələbə hərisliyinin liderlərdə yaratdığı qəddarlıqdan başqa bir şey deyil. Oyun psixologiyasına girib və amansız olan liderlərin - Rusiya tarixində taxta varis olan oğlunu məhv edən İvan Qroznı və Birinci Pyotrun, siyasi və ideoloji mülahizələrlə oğlunu əsirlikdən xilas etməkdən imtina edən Stalinin, türk tarixində əsası Sultan Fateh tərəfindən qoyulmuş və Osmanlı taxtının təhlükəsizliyini təminat altına almaq naminə övladlarını, qardaşlarını, ata və anasını qətl etmələri də məhz siyasi oyun aludəçilərində bu oyunun yaratdığı amansızlığın təzahürlərindəndir.

Çapay müəllim bu fəsildə Azərbaycana rəhbərlik etmiş liderlərin - Əbdürrəhman Vəzirov, Ayaz Mütəllibov, Yaqub Məmmədov, Heydər Əliyev, İlham Əliyevi şahmat füqurlarına uyğun liderliyini təsvir etmişdir. Bu fəsildə həm də dünya liderlərinin, xüsusən ABŞ, Çin və Rusiya liderlərinin regional və qlobal siyasətdə oynadıqları siyasi oyunları şahmat prizmasından dəyərləndirmişdir.

Siyasətçinin məğlub və qalib olması onun seçdiyi siyasi üslubdan, siyasi müstəvidən, vaxtdan və resurslardan asılıdır. Bu baxımdan məğlubiyyətə və qələbəyə aparan şərtləri bilmək tələb olunur. Qələbəyə aparanları qəbul etmək məğlubiyyətə aparanlardan imtina tələb olunur. Çapay müəllimin kitabının üçüncü fəsli əskiliklərdən dolayı məntiq üsulunu siyasətə tətbiq etməklə həqiqəti necə tapmaq haqqındadır və buna görə müəllif bu fəsli - siyasi olaraq - "şahmatda necə oynamaq olmaz!" adlandırmışdır... Bu fəsildən siyasi səhvlər şahmatı pis oynamaq kimi təqdim edilir və zəif siyasətçilərlə zəif şahmatçılar arasında paralellər aparılır. Bu fəsil SSRİ-də oynanılan yanlış siyasi oyunların qurbanları haqqındadır. Burada Mircəfər Bağırovun, İman Mustafayevin, Axundovun, Qorbaçovun, dövrün siyasi müxaliflərinin, bu dövrün qlobal güclərinin siyasi fəaliyyəti şahmat prizmasından təhlil edilir.

Kitabın dördüncü fəslini Çapay müəllim "şahmatlar-siyasətin qurulma elementi kimi" adlandırmışdır. Bu fəsildə müəllif Fransa təbiətşünası Sİ Jorj Lui Leklerk de Byuffonun "Stil-bu insandır" fikrini diskurs edərək belə qənaətə gəlir ki, "şahmatda oyun stili, əlbəttə, tam olmasa da, insanın ən informativ xarakteristikasıdır". Buna görə də, hər bir siyasi lideri də məhz apardığı siyasətlə xarakteristika etmək mümkündür.

Buradan da müəllif Azərbaycanın (xüsusən "boz kardinal" kimi ad çıxarmış Ramiz Mehdiyevin sovet dönəmində və müstəqillik illərindəki siyasi fəaliyyətini) və dünyanın siyasi liderlərinin siyasi stillərindən onların siyasi fəaliyyətini dəyərləndirməyə cəhd etmişdir. Bu fəsildə sıravi adlanan siyasətçilərin siyasətdəki rolu təhlil edilir. Peşkaların bəzilərinin ferzlərə çevrilməsi R.Mehdiyev nümunəsində çox uğurla təsvir edilir.

Müəllif dünyaca məşhur, orta əsr fransız siyasətçisi Taleyrandan belə bir misal gətirir. Müharibənin gedişinə baxaraq, "deyəsən bizimkilər qalib gəlir",- demişdir. Soruşanda ki, "Sizinkilər kimdir"? Taleyran demişdir: "Bunu ancaq sabah deyə bilərəm". Əslində, Taleyranın siyasi yüksəlişi həmişə qaliblərlə çərçivədə olmağa üstünlük verməsi ilə bağlı olmuşdur. Məhz buna görədir ki, həmin dövrdə bir-birinə düşmən qüvvələr birbirini əvəz etsə də, Taleyran bütün hakimiyyətlər üçün lazımlı fiqur kimi çıxış etmişdir. R.Mehdiyev də həm sovet, həm də müstəqillik dövründə siyasi cəhətdən açıq və ardıcıl müdafiə etmədiyi və hətta bəzən əleyhinə olduğu liderlərin hakimiyyətində ikinci yeri tuta bilmişdir. Bu fəsildə heç bir xüsusi siyasi qabiliyyəti olmayan, amma ölkənin ən mürəkkəb dövründə uzun müddət baş nazir vəzifəsini icra edən və bu dövrdə bir kəlimə də olsun ölkədə və dünyada gedən iqtisadi-siyasi proseslərlə bağlı fikir bildirməyən Artur Rəsizadə, sovet dövründə Mərkəzi Komitənin katibi, müstəqillik dövründə xarici işlər naziri və son vaxtlar tarixçi alim stili sərgiləyən Həsəm Həsənovun siyasi liderliyi geniş və hərtərəfli şərh edilir. Bu nümunələr əsasında istənilən ölkənin, istənilən tarixindən mürəkkəb siyasi oyunlara da aydınlıq gətirmək mümkündür.



Kitabın beşinci fəsli "Şahmatlar və çoxlu..." fəslində Çapay müəllim şahmatın bir çox tərəfdən elmə yaxın olmasını qeyd edərək, alim və şahmatçılar, elm və şahmat arasında paralellik aparır və çox maraqlı nəticələrə gəlir. Bu fəsildə şahmatla maraqlanan alimlərdən M.M.Botbinnik, D.İ.Mendeleyev, riyaziyyatçı akademik A.A.Markov, məşhur qütb tədqiqatçısı O.Y.Şmidt, dünya şöhrətli Kapica, o cümlədən Azərbaycanın məşhur alimləri kimyaçı akademik Togrul Şaxtaxtinski, akademik geoloq Ənvər Şıxlinski, riyaziyyatçı, elmlər doktoru Azər Zeynallı və bir çoxlarının elmdə nəhəng nailiyyətlər əldə etməsi ilə şahmat oyununa maraqları arasında əlaqələrə aydınlıq gətirir.

Bu fəsildə müharibə və şahmat mövzusu ilə bağlı da olduqca maraqlı şərhlərə rast gəlmək mümkündür. Şahmat yarışlarının siyasiləşdirilməsinin də şahmatla siyasət arasında daxili bağlılığın olmasını sübut edir. Bu fəsildə dünya siyasi liderlərinin şahmat oyunu və məşhur şahmatçılara münasibətləri ilə bağlı az məlum olan faktlardan söhbət açılır. Bu fəslin ən vacib yerlərindən biri şahmatla iqtisadiyyat, informasiya və şahmat arasında aparılan paralellər və əldə edilən elmi nəticələrdir.

***(Ardı var)***



Eldəniz QULİYEV

# Dişlənmiş top

"Tarif Şurası" deyilən ipləmə bir təşkilat gediş-gəliş yollarımızın hər yerinə mina basdırıb... Gözəl-göyçək hökumətimiz ağır çaplı çərimə və cəzalardan ibarət silahlardan bizlərə yaylım atəşi açır...

**Məkan bir maşındır, Zaman yol, Ölüm isə sürücü... Bizlər də qorxa-qorxa əyləcə baxan sərnişinlər...**

"Bizlər" deyəndə, əlbəttə ki, xalqımızı nəzərdə tuturam. O xalqı ki, indiyəcən bu qədər yalqız, bu qədər yiyəsiz və bunca yetim olmamışdı...

Zaman-zaman özümüzü Koroğlu nərəsinə, Babəkin vuran qoluna, Nəbinin eşmə bığına bənzətdik... Amma nə oldu, nə baş verdisə, tədricən rəzil bir günə düşdük. Son illər nədən və nəyə görə dönüb də öz kölgəsindən hürküb-diksinən, hər şeydən xoflanan və hər zaddan çəkinən gözüqıpıq hala gəldik?!

Bəlkə, kələfin ucunu qayğanaq bişirməyin sirlərindən agah olmamağımız ucbatından itirdik?.. Yəni məşhur məsəli anlamadıq, ya anlamaq istəmədik ki...yumurtanı sındırmasan ondan qayğanaq bişirmək olmaz!

Bu adidən də adi həqiqəti heç kəs anlamadı. Nə sinəsinə döyə-döyə mifik mübarizə dastanları uyduran və heç vəchlə sözdən əmələ keçə bilməyən (bəlkə də, istəməyən) müxalif bəylər, nə məmləkət əhlinə yuxarıdan aşağı istehzayla baxıb Azərbaycanı yeməli toyuq kimi görən və ondan dadlı-ləzzətli tabaka bişirmək xəyalları ilə yaşayan YAP hakimiyyəti, nə də öz taleyinin sahibi olmaqdan daha çox, ONUN biganə tamaşaçısına çevrilən biçarə millət!.. İki daş arasında, daha doğrusu, bığla saqqal arasında, lap dəqiqi isə, Nəbinin bığı ilə, Nəsiminin saqqalı arasında qovrula-qovrula qalan məzlum, fağır xalq!..

Hər nə idisə, vəziyyət hərlənib-fırlanıb, sonda gəlib - "urusca"ya dirəndi...

Və bir gün ayılıb gördük ki, budu ha! - artıq başımızda turp əkmək mərhələsi bitib, indi də keçiblər dərimizə saman təpməyə!.. Gördük ki, bütün varlığımız, dolanışığımız, mövcudluğumuz, yaşamaq haqqımız büst-bütün işğala məruz qalıb...



Sonra gördük ki, ikiayaqlı zəlilər, taxtabitilər, gənələr (və əlbəttə ki, həm də gədalar) xalqın canına darışıb...

Baxın, "Tarif Şurası" deyilən ipləmə bir təşkilat gedişgəliş yollarımızın hər yerinə mina basdırıb... Gözəl-göyçək hökumətimiz ağır çaplı çərimə və cəzalardan ibarət silahlardan bizlərə yaylım atəşi açır... Qiymətləri artıran bicbalalar isə, camaata paz qonaqlığı vermək yarışına girişib...

Daha sonra, gördük, anladıq, nəhayət qandıq ki, halalca haqqımız, hüququmuz, qismətimiz və ruzimiz "optovoy" şəkildə qərəzli, böhtanlı, şər-şəbədəli snayper güllələrinə tuş gəlib - qəlpəsi pozandan ibarət olan güllələrə!..

Bu yazıq, bu bədbəxt xalq bu vəziyyətdə neynəməlidir və ya neynəyə bilər ki?.. Hara baxır, hara dönür, hara gedir, kimə ümid edirsə... bədənləri başdan-ayağa ac qarından ibarət olan harın müdirlərə, rəislərə, başçılara, rəhbərlərə, sədrlərə, prezidentlərə və s. danabaşlara rast gəlir. Dərdini deməyə hara və kimə üz tutursa; hansı idarənin, nazirliyin, şirkətin, komitənin, icra hakimiyyətinin qapısını açırsa... qarşısında, ağıl dişi qulaqlarında çıxan ekzotik məxluqlar peyda olur... Hər yerdə və hər yanda da mütləq şəkildə, zərbə alır - söyülür, burnu əzişdirilir, alçaldılır... Nəticədə, sadə vətəndaş özünün insan yox, həşərat olduğu qənaətinə gəlir və: "Öz cəzandı, çək, Balaş!.." mahnısından savayı özgə bir şey oxuya bilmir...

Bu yerdə, yadıma bir neçə il əvvəl Almaniyada müasir rəsm əsərləri və qeyri-adi eksponatlar sərgisində şahidi olduğum hadisə düşdü. Deməli, şüşə arxasına dişdəm-dişdəm olmuş, ovuc boyda bir top qoyulmuşdu - adicə uşaq topu idi. Ona tamaşa edənlərin sayı diqqətimi cəlb elədi. Yaxınlaşdım ki, görüm, nədən buna bu qədər maraq göstərirlər?..

Sən demə, bu eksponat adi olmasıyla yanaşı, həm də (guya) qeyri-adi top sayılır. Yəni nə vaxtsa, hansısa bir adam öz itinə təlim keçmək məqsədilə həmin topu qolazlayıb atır, it də qaçıb onu dişləriylə götürüb sahibinə qaytarırmış... İt hər dəfə topu dişləyəndə, təbii ki, topun üzərində onun dişlərinin yeri qalırmış. Və itin dişləri, nə vaxtsa alabəzək olmuş top üzərində qarmaqarışıq "naxışlar" buraxmışdı... Bələdçi xanımın dediyinə görə, hazırda bu naxışlar incəsənət nümunəsi kimi dəyərləndirilir... Doğrudan da, sənətə, sənət əsərinə baxış bucağı sonsuz-hüdudsuzmuş...

Nə deyim, vallah... Sözün əsl mənasında, "İt ağzından çıxmış" o topu nədən xatırladım? Əslində...

Allah keçsin günahımdan, demək istədiyim budur ki, bu gün məmləkətimizi eynilə həmin o topa oxşadıram... Qanadlı-qanadsız dəvəyə dönüb uçulmamış dam-daş qoymayan məmur sürüsü ONU o qədər dartıb-didişdirib, o qədər çalıb-çapıb və o qədər dişləyib-gəmirib ki, bu gün Azərbaycanın psevdo-ART əsərlər sərgisinin əsas eksponatlarından birinə çevrilmək şansı yaranıb...

İndi oturub öz-özümə fikirləşirəm ki, görən bizlər etdiyimiz hansı günahlar səbəbindən bu acı taleyi yaşamağa məhkum olunmuşuq?..

Əslində, başqa cür ola da bilməzdi. Yəni bir məmləkətdə ki, bacaranlar iş görür, bacarmayanlar idarə edir, idarə edə bilməyənlər isə... rəhbər olmaq istəyir!..

Vəssalam də! Ta başqa nə olasıydı ki?!

Bəli, mənim əzizlərim, nə yazıq ki, bax belə... mütəqəlqəl bir zamanda və belə əndirabadi bir məkanda yaşayırıq...

Yaşayırıqmı?..

# Bəxtiyar Hacıyevə ağır cəza verildi

## O, 10 il müddətə azadlıqdan məhrum edildi

**Cinayət Məcəlləsinin bir neçə maddəsi ilə təqsirləndirilən Bəxtiyar Hacıyevin cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb. Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Əli Məmmədovun sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.**



Hökmə əsasən, o, 10 il müddətə azadlıqdan məhrum edilib.

Xatırladaq ki, Bəxtiyar Hacıyev 2022-ci ilin dekabr ayı saxlanılıb. O, İnzibati Xətalar Məcəlləsinin 192.1-ci (əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi), Cinayət Məcəlləsinin 193-1.3.2-ci (cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdırma), 206.1 (qaçaqmalçılığa köməklik etmə), 221.2.2 (bir qrup şəxs tərəfindən ictimai qaydanın qorunması üzrə vəzifəni yerinə yetirən şəxsə müqavimət göstərməklə xuliqanlıq), 289.1-ci (məhkəmə baxışı iştirakçılarını təhqir etməklə məhkəməyə hörmətsizlik etmə), 320.1 və 320.2-ci (rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə) maddələri ilə təqsirli bilinib.

Stress və qorxu dedikdə gündəlik yaşadığımız hadisələr, aylar, illər ərzində keçirdiyimiz gərgin hisslər yada düşür. Bu hissləri keçirməyən, bu hal ilə tanış olmayan insan yoxdur. Normal vəziyyətdə ürək döyüntülərimiz 70-80 dəfə döyünürsə, stress və qorxu zamanı 120-160 arası dəyişir. Bu vəziyyətdə isə bir çox insanların halı kəskin dəyişərək, bəzi xəstəliklərlə də nəticələnə bilir.



# Qorxu və stressi necə aradan qaldırmaq olar?

## Abdulla Şıxlınski: "Bəzi insanlar ömür boyu psixiatrın nəzarətinə möhtac olur"



Stress qan təzyiqinin qalxması, yaxud da enməsinin, iştahın artmasının və yaxud da azalmasının, yorgunluğun, yüksək aktivliyin, çox danışmanın, susmanın, depressiyanın ən birinci səbəbidir.

Bütün bunlardan xilas olmaq üçün həyata "başqa gözlə" baxmağı öyrənmək lazımdır. Stresslə mübarizə özünə təsirdən başlayır və insan özünün fiziki və emosional hisslərini cilovlamağı bacarmalıdır. Əks halda heç nə yaxşı nəticələnməz.

Stress və qorxu hisslərini yaşayan insanlar qorxulu kinolara, kriminala həsr olunmuş verilişlərə, qorxulu kitablara və s. əsla baxmamalıdırlar. Qorxu və stressin fəsadları ilə bağlı həkim-psixiatr Abdulla Şıxlınski ilə söhbət etdik. Onun sözlərinə görə, hər qansı bir qəzaya, stressə və ya distress vəziyyətinə məruz qalan insanlarda baş verən hal stressə qarşı kəskin reaksiya adlanır. Bu, müxtəlif xəslələiklərin təsnifatında və adi dioqnastik təyinatlardada belə qeyd olunur. Yəni stress və distress vəziyyətinə kəskin reaksiya və yaxud da kəskin reaktiv vəziyyət deyilir. Hansısa bir hadisəyə və ya xoşagəlməz hadisələr silsiləsinə qarşı şəxsiyyətin reaksiyasına kəskin reaktiv vəziyyət deyilir. Bu halın əmələ gəlməsi üçün şəxsiyyətin özünün daxilində müəyyən zəmin olmalıdır. Əgər baş verən hadisə aviasiya qəzası, avtomobil qəzası, yaxın adamların itirilməsi və yaxud insan ona məxsus əmlakı itirirsə, müxtəlif zorakılığa məruz qalırsa, kriminal hadisələrdən, cinayətkarların əməllərindən əziyyət çəkirsə və s. bu kimi hallar onda kəskin reaktiv vəziyyət yaradır. Kəskin reaktiv vəziyyət öz təyinatına görə müəyyən ağır ruhi xəstəliklər səviyyəsində təsvir olunmasa da, bunları aradan qaldırmaq həddindən artıq çətindir.

Abdulla Şıxlınski deyir ki, bəzi ruhi xəstəliklərin gedişi çox ağır keçir, onlar ömür boyu insanın həyatına, yaşayışına maneçilik törədir: "Müəyyən qəzalar və yaxud da insanların başına gələn bədbəxt hadisələrin psixi və psixoloji nəticələrini aradan qaldırmaq həddindən artıq çətindir. Bəzən heç mümkün də olmur. Bəzi hallarda isə reaktiv vəziyyətə düşən insanlarda bu reaktiv vəziyyətin izləri ömrü boyu qalır və onlar məcbur olub həyatları boyu müəyyən dərmanlar qəbul edir, daim müalicə alırlar. Yəni bu hal elədə yüngül vəziyyət sayıla bilməz. Əksinə, bu, psixiatriyada təsadüf edilən ən ağır vəziyyətlərdən biridir. Bu reaktiv vəziyyətlərin əmələ gəlməsi üçün ən mühüm şərt ondan ibarətdir ki, şəxsiyyətin daxili maraqları ilə baş verən hadisə arasında nə qədər əlaqə var. Yəni insan var ki, baş verən hadisəyə münasibəti çox adi olur. Insan da var ki, həmin hadisəyə çox güclü bir distress reaksiyası verir, onun nəinki psixi, həm də müəyyən başqa orqanlarında çox ciddi dəyişiklər əmələ gəlir. Əlbəttə, bunun hamısı şəxsiyyətin fərdi reaksiyasından çox asılıdır".

Həkim-psixiatrın dediyinə görə, ümumiyyətlə, ən təhlükəli, ən xoşagəlməz, ən ağır keçən reaktiv vəziyyətlər o vaxt baş verir ki, insanın fiziki və ya psixi mövcudiyyətində təhlükə var: "Baş verən qəza zamanı insanda həm fiziki, həm də psixi mövcudiyyətində ağır təhlükə yaradır. Konkret biz təyyarə qəzasını götürsək, bura başqa faktorlar da qoşulur.

Həmişə öz adət etdiyini fikirləşmək üslubuna və adət etdiyi mental sxemlərə görə, insan ölümü adətən belə təsvir edir: Öz evində ölüm ayağındadır, ətrafında ona yaxın adamlar var, onlar onu son mənzilə yola salacaqlar.

Təyyarə, gəmi, avtomobil və s. müxtəlif qəzalar zamanı bu adət edilən fikirləşmək üslubu qəflətən itir. İnsan bu zaman başa düşür ki, onun adət etdiyi ölüm məsələsi vəziyyətə görə o fikirləşdiyi tərzdə olmayacaq. Təyyarə qəzasıdırsa, onun cəsədi tanınmaz vəziyyətə və yaxud da əzalarının hərəsi bir tərəfə düşə bilər. Belə vəziyyətdə insan bunu anlayır.

Gəmi qəzasında isə yenə insan başa düşür ki, onun cəsədi suyun altına batıb gedəcək. Çox vaxt da oradan onları tapmaq olmur.

İnsanların əksəriyyəti ölümü qorxu ilə qarşılayır. Amma müəyyən qədər yüngülləşdirici bir psixioloji məqam var. Bəzi adamlar fikirləşirlər ki, mən öləndə yanımda yaxınlarım olacaq, ölümümü heç hiss etməyəcəm, öləndən sonra da aparıb öz qaydasında dəfn edəcəklər. Bu fikirlər bütün insanlarda var, amma qəza bir anda bütün steriativliyi pozur. İnsan sanki başqa bir ölçü məkanına düşür. Artıq tam anlayır ki, ölümün başqa formaları da olur. Məhz həmin anda insan ölümün hər cür ola biləcəyini dərk edir. İnsanlar təyyarəyə mindiyi zaman heç bilməzdilər ki, qəza olacaq. Qəza zamanında isə bilmirlər ki, kim sağ qalacaq, kim öləcək. Heç kəs bunu tam təsəvvür edə bilməz. Qəza təhlükəsi zamanı steriativlik itir və insan artıq içində olduğu vəziyyəti fikirləşməyə başlayır, dəhşətli vəziyyəti dərk edir".

Abdulla Şıxlınski onu da vurğuladı ki, psixiatriyada, psixoterapiyada kəskin distress vəziyyətində reaktiv vəziyyət inkişaf etdiyi anlarda 3 mərhələ ayırd edilir: "Birinci, şok mərhələsidir. İnsan artıq özü üçün yəqin edir ki, əlac yoxdur, gəmidə, yaxud təyyarədə faciəli şəkildə öləcək. Və yaxud da ona qarşı olunan müəyyən zorakılığın qarşısını ala bilməyəcək, onu məhv edəcəklər. Bu anda insanda şok vəziyyət əmələ gəlir. Təsadüfi deyil ki, adi şəraitdə - həm psixoloji, həm fiziki cəhətdən güclü olan adamlar həmin vəziyyətdə çox qəribə şok vəziyyətinə düşürlər. Onlar balaca uşağı xatırladırlar. Uşaq itdən və yaxud da müəyyən heyvandan qorxan zaman necə panik halına düşüb ağlayırsa, onlarda da belə reaksiya əmələ gəlir.

Bir qrup adam adam da sakit görünsə də, daxilində təlatüm yaranır. Bu da belə bir şok əlamətidir.

Dindar insanlar dua oxumağa başlayır, adi insanlar isə hansı qüvvəyə inanırsa, o qüvvədən kömək istəyir. Belə bir xaotik psixotexnoloji vəziyyət əmələ gəlir.

Qəza vaxtı insan dərk edir ki, həyat nə imiş. Adi həyatda isə həyatın nə olduğunu heç kəs dərk etmir. Bu, təkcə psixoloji, psixotexnoloji vəziyyət deyil, eyni zamanda fəlsəfi məsələdir. Həyatın anlamını dərk etdiyi vaxtda ölümü də dərk edir. Biraz da yaşamaq istəyi gəlir. Təəssüf ki, çox hallarda insan həyatı dərk etdiyi zaman ölümlə üz-üzə olur.

İkincisi, psixoz mərhələsidir. Bu, ondan ibarətdir ki, artıq xırda və qeyri-müəyyən olsa da, çıxış yolunu tapmağa çalışırlar. Sanki ayılırlar və çıxış yolu axtarırlar. Belə adamlar qəza zamanı bir-birilərinə məshələt verməyə başlayırlar. Daha sonra sürücüyə və yaxud da bələdçilərə məsləhət verirlər. Hansı ki, özləri belə, ətraflı heç nə bilmirlər. Özlərini digərlərindən bilmiş göstərirlər. Belə insanlarda psixoz əmələ gəlir. Artıq onlar olduqları mühiti dərk etmirlər, real aləmi dəyişilmiş şəkildə dərk edirlər. Bu da reaktiv psixoz mərhələsidir.

Üçüncüsü, razılaşma mərhələsidir. Bu vəziyyətdə insan hələ sağdırsa, artıq o hər şeylə razılaşır, yəni "nə olar, olar" deyir. Məhz üçüncü mərhələdə insanlar birləşir. 2 adamın bir-biri ilə xoşu gəlmirdisə, 3-cü mərhələdə ölümü dərk etdikləri üçün birləşir, bir-birilərinə dəstək olurlar. Hər kəsdə ümumi psixi durum, düşüncə tərzi əmələ gəlir. Eyni kritik vəziyyətdə olan adamlarda ümumi düşüncə tərzi formalaşır. "Görək necə olacaq, nə olar, olar, əsas odur ki, biz bir yerdə olaq", - deyə fikirləşirlər. Bu vəziyyətin başqa bir tərəfi də var. El arasında belə deyirlər, həmişə tək ölmək dəhşətlidir. Amma biləndə ki, səninlə yanaşı başqa adam da ölür, o zaman ölüm anında vəziyyət biraz yüngülləşir. Əslində isə burada həqiqət var. Psixiatriya elmi sübut edib ki, insan tək ölməyəcəyini dərk edirsə, bu zaman onun vəziyyəti bir qədər yüngülləşir. Odur ki, bu mərhələyə "razılaşma mərhələsi" deyilir".

A.Şıxlınski əlavə etdi ki, qəzalar zamanı, kritik vəziyyətlərdə insanların psixikasında 3 səviyyədə dəyişiklik gedir: "Birincisi, emosional səviyyədir. Burada insanlar hansı emosianı keçirirlər: bəziləri qorxur, bəziləri ümid edir, bəziləri həyəcanlanır və s. Bunun hamısı emosional mərhələdir.

İkincisi, davranış səviyyəsidir. İnsanlar müxtəlif səviyyədə öz davranışları ilə kritik vəziyyətdə özlərini göstərirlər. İnsan var ki, qışqırır. Bir başqası gəzir. Elə insan da var ki, sakit oturub, bir nöqtəyə baxır. Adam da var ki, sadəcə kömək gözləyir.

Üçüncüsü, koqnitiv səviyyədir. Burada insanlar soyuqqanlı olurlar. Düşünür ki, artıq budur və öz taleyinin məntiqi nəticəsinə hazırlaşır. Bu hal hər adamda olmur. Bu, çox çətin bir vəziyyətdir. Öz taleyinin məntiqi nəticəsini görmək, ona sakit vəziyyətdə reaksiya vermək hər adamda olmur".

Həkim-psixiatr bildirdi ki, qəzadan sağ çıxan insanlara qarşı psixoterapevtik reabilitasion tədbirlər həyata keçirilməlidir: "Əlbəttə, çox ağır hallarda biz dərman vasitələrindən istifadə edirik. Yəni ruhi xəstələrin müalicəsi zamanı istifadə olunan dərman vasitələrindən istifadə olunur. Bir qədər yüngül hallarda psixoterapevtik vasitələrdən istifadə edirik. Buna başqa sözlə, psixo-texnoloji vasitələr də deyilir. Psixo-texnoloji vasitələrlə biz insanın artıq özündə olan, ehtiyatda olan psixi resuslarını inkişaf etdiririk. Müəyyən söhbətlərdir, müəyyən psixo-texnoloji əməliyyatlardır, bunlar dərmansız həyata keçirilir.

Bütün tədbirlərə baxmayaraq, bu məsələ çox vaxt uzanır. Yəni inasanlarda post-travmatik stress vəziyyəti inkişaf edə bilər. Baxmayaraq ki, onların yaxşı olması üçün bütün tədbirlər görülür. Xüsusən də həlak olmuş insanların qohumlarında post-travmatik vəziyyət inkişaf edir. Onun isə əsas əmaləti odur ki, insan vaxtaşırı olaraq həmin hadisəni yadına salır, qığılcım kimi beyində hadisələr yanır-sönür. Belə bir çətin vəziyyət olur. Bu vəziyyətdə insan ömür boyu psixiatrın nəzarətinə möhtac olur. Yəni bu insanlar əlil olur. Hətta xəstəliyin dərəcəsinə görə əlillik də təyin etmək olar. Çünki həmin xəstələr psixiatrdan asılı vəziyyətdə olurlar. Nəzarət olmadıqda isə, onlar heç bir fəaliyyət göstərə bilmirlər. Bu, kifayət qədər ağır bir vəziyyətdir".

**Jalə FAMİLQIZI**

**Xaçmaz rayon sakini, hazırda məhbus həyatı yaşayan Aslan Kovazov 20 ildən artıqdır ki, Maştağa ruhi əsəb dispanserində qeydiyyatdadır. Hər 6 aydan bir mütəmadi olaraq müalicələrdə olub.**



# Həbsxanada zorlanmasın deyə intihara cəhd etdi

## Məhbus Aslan Kovazov iki “dırnaqtutan” udmağa məcbur edilib

Aslan Kovazov artıq 2 il 6 aydır ki, həbsdədir. Həbs olunmamışdan qabaq ailəli olub, 2 övladı var. Oxuma-yazması yoxdur.

Həbs olunandan sonra ona məxsus torpaq sahələri satılıb, yoldaşı isə başqa birinə qoşulub gedib.

Hazırda məhbus olan Aslan Kovazovun başına açılan oyunlarla bağlı “Hürriyyət”ə müraciət edib. Dediyinə görə, 2 il 6 aya yaxın həbsdə olan bu şəxs, heç bir səbəb göstərilmədən, 15-20 gün öncə 14 saylı Cəzaçəkmə Müəssisəsindən Şüvəlan Müvəqqəti Saxlama Müəssisəsinə göndərilib. Aslan Kovazovun sözlərindən belə başa düşülür ki, onu burada ya öldürmək, ya da hansısa cinayəti üzərinə yıxmaq istəyiblər.

Aslan Kovazov iddia edir ki, şərlənərək, həbs olunub. Ümumiyyətlə, həbsdə olduğu müddtdə onun redaksiyamıza şikayəti heç bitməyib. Hər dəfə “Hürriyyət”ə müraciətində incidildiyini, təhqirə məruz qaldığını bildirib. Onun sözlərinə görə, yazdığı ərizələr qərəzli şəkildə məhkəməyə göndərilmir.

Bu arada isə, məhbusun azadlığa çıxma vaxtına az qaldığı üçün, ondan hər ayına 500 manat, toplam olaraq 2500 manat pul istəyiblər. Bildirək ki, onun həbs müddəti fevral ayının 15-də bitir.

Onu da qeyd edək ki, “Hurriyyet TV”-nin efiri vasitəsilə rəsmi qurumlara müraciət olunduqdan sonra onu həbsxanada vəhşicəsinə döyüb, təhqir ediblər. Hətta onun üzərinə gələrək, “nə oldu, Vüqar müəllim səni qurtaracaqdı?! Gətirib 2500 manat versin, səni buraxaq”, - deyib ələ salıblar. Həmçinin, “sənin arxanda bir jurnalistin durduğunu da bilirik”, - deyə əlavə ediblər.

Məlumat üçün onu da vurğulayaq ki, ötən ay - dekabrın son günlərində Aslan Kovazov tərəfindən “Hürriyyət”in baş redaktoruna növbəti zəng gəlib. Deyib ki, məni Şüvəlana gətiriblər. Səbəbini soruşduqda, “burda deyirlər ki, açılmayan hansısa cinayəti sənin boynuna qoyacaqlar. Elə bundan qorxaraq, sizə zəng vurmuşam”, - deyə bildirib. Təxminən 3-4 gün sonra yenidən zəng vurub ki, “məni burda çox döyürlər, səbəbini soruşduqda isə deyirlər ki, 14 saylı Cəzaçəkmə Müəsisəsində bəzi hərəkətlər etmisən, ona görə döyürük”. Bütün bunlarla yanaşı, onu döyməleri üçün bəzi məhbuslara da tapşırıq verilib. Onlar da səbəbsiz yerə tez-tez onu döyüblər.

Bundan əlavə, xəstə adamı zorlamaqla qorxudur, onu təhdid və təhqir edirlər. Hətta 3 dustaq söhbət edərkən Kovazov onu öldürəcəklərini eşidib, gecə ilə qapını döyərək, yerini dəyişib.

Ən dəhşətlisi isə odur ki, bütün bu işgəncələrdən sonra məhbus Aslan Kovazov canından bezərək,




“dırnaqtutan” aləti udub. Bu səbəbdən, hazırda səhhətində ciddi problem yaranıb. Buna baxmayaraq, həbsxana rəhbərliyi onu otağa çağıraraq, “ya səni burda öldürəcəyik, ya da intihar et, özünü öldür”, - deyiblər. Qeyd edək ki, bu sözləri deyən şəxslər Rafiq adlı rejim rəisi, rəisin müavinləri Rasim və Natiq, o cümlədən də rəisin özü olub. Rafiq və digərləri onu döydükdən sonra bildiriblər ki, “burdan bir daha çölə xəbər çıxarsan, səni zorlayacağıq”.

Məhz bundan sonra Aslan Kovazov kameraya gedən kimi daha bir ədəd “dırnaqtutan” udub. Çünki zorlanmağından qorxub.

Məsələ ilə bağlı “Hürriyyət”in baş redaktoru dərhal Penitensiar Xidmətin mətbuat katibi Tanrıverdi Mustafayevə zəng vurub, vəziyyətin gərgin olduğunu ona bildirib. O isə mənə narahat olmamağımızı, dərhal hadisə ilə maraqlanacağını

> “Hürriyyət” olaraq rəsmi qurumlara müraciət edirik ki, bu işə ciddi baxılması üçün müvafiq qurumlara tapşırıq verilsin. Bir daha qeyd edək ki, məhbus Aslan Kovazov “Hürriyyət”ə müraciət etdiyi üçün onu daha da incidirlər. Onların bu hərəkəti isə ağıllara şübhə salır. Məsələn, bəzən belə düşünürük ki, görəsən, Aslan Kovazov həbsxanada qarşılaşdığı haqsızlıqlarla bağlı mətbuata müraciət etdiyi üçün, digər məhbuslara “dərs olsun” deyə, rəhbərliyin göstərişi ilə incidilir?!

deyib.

Doğrudur, bu hadisədən 4 gün sonra onu yenidən 14 saylı Cəzaçəkmə Müəssisəsinə göndəriblər. Amma hazırda onun ağzından qan gəlir, təbii ehtiyaclarını ödəyə bilmir, sağlıq durumu olduqca ağırdır. Rəis və müavinləri onu lağa qoyaraq deyirlər ki, buradan çıxandan sonra gedib o “dırnaqtutan”ları çıxartdırarsan.

Bütün bunları eşitdikdən sonra bir daha Penitensiar Xidmətin mətbuat katibi Tanrıverdi Mustafayevə müraciət etdik. Və növbəti dəfə ondan eyni cavabı aldıq: “Narahat olmayın, həll edəcəyik”.

Rəis xəstə məhbusu lağa qoyub gülür ki, “ölürsən, cəhənnəmə öl”. Müavini də ona bildirir ki, ““dırnaqtutan” udmazdın, bu vəziyyətə də düşməzdin”. Bu yetməzmiş kimi, iki “dırnaqtutan” udan şəxsi rəis Cəlil müəllim və digərləri otağa çağıraraq qorxudur, təhqir edib videosunu çəkirlər. Videoda adamı bunu deməyə məcbur edirlər ki, “yoldaşım başqa kisi ilə qaçdığı üçün intihar etmək istəyirəm”,- desin.

“Hürriyyət” olaraq rəsmi qurumlara müraciət edirik ki, bu işə ciddi baxılması üçün müvafiq qurumlara tapşırıq verilsin. Bir daha qeyd edək ki, məhbus Aslan Kovazov “Hürriyyət”ə müraciət etdiyi üçün onu daha da incidirlər. Onların bu hərəkəti isə ağıllara şübhə salır. Məsələn, bəzən belə düşünürük ki, görəsən, Aslan Kovazov həbsxanada qarşılaşdığı haqsızlıqlarla bağlı mətbuata müraciət etdiyi üçün, digər məhbuslara “dərs olsun” deyə, rəhbərliyin göstərişi ilə incidilir?!

Əlbəttə, istər Ədliyyə Nazirliyinin, istər də Penitensiar Xidmətin rəhbərliyinin belə göstəriş verəsəyinə inanmırıq. Elə bu səbəbdən də, hər iki qurumun yetkili məmurlarına müraciət edərək, bir gəncin həyatını bundan artıq məhv etmələrinə imkan verməsinlər. Hər bir halda A.Kovazovun bu qədər incidilməsinin səbəbsiz olmadığı, hətta sifarişli olması da mümkündür. Əks halda, kimsəsiz bir adamı niyə bu qədər döyüb təhqir etsinlər ki?

Sonda onu da qeyd edək ki, uzun şikayətlərdən sonra, nəhayət yanvar ayının 10-da məhbus Kovazov tibb məntəqəsinə göndərilib. Ondan analizlər götürülüb, amma “dırnaqtutan”ların çıxarılması ilə bağlı hələ heç bir tədbir görülməyib.

Üstəlik, xəstəxanada olan müddətdə məhbusdan müstəntiq 2 dəfə izahat alıb. Yuxarıda da qeyd etdiyimiz kimi, bu adam oxuyub-yaza bilmədiyi üçün izahatında nə yazıldığı ona bəlli deyil. Müstəntiq orada yazılanları ona oxumadan, izahata qol çəkdirərək gedib.

Odur ki, bir daha Ədliyyə naziri Fərid Əhmədovdan və Penitensiar Xidmətin rəisi Mirsaleh Seyidovdan bu işi ciddi nəzarətlərinə götürmələrini xahiş edirik. Hesab edirik ki, ilk öncə Aslan Kovazovun hansı səbəbdən 14 saylı Cəzaçəkmə Müəsisəsindən Şüvəlan Müvəqqəti Saxlama Müəssisəsinə göndərilməsinin səbəbləri, daha sonra isə ümumiyyətlə onun ətrafında baş verənlər araşdırılmalı, günahkar şəxslər hüquq çərçivəsində cəzalandırılmalıdır.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları çəkilən şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

Hürriyyət

Toplum

SİZİN ÜÇÜN QƏZET

№02 (3341) 14 Yanvar / 2025-ci il


www.hurriyyet.az; / hurriyyet@mail.ru

# Göygöl sakini əlillik təyinatının düzgün aparılmadığını iddia edir




## Surxay Vəliyev: "TƏBİB saxtakarlıq edib, mənim sənədlərimi sistemə vurmur"

**Göygöl rayon sakini Vəliyev Surxay Sultan oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Onun müraciətini olduğu kimi dərc edirik:**




"Məlumat verim ki, 2022-ci il, may ayının 9-da beyin infarktı keçirmiş, ağır şəraitdə xəstəxanada yatmışam. Uzunmüddətli müalicələrdən sonra həm xəstəxana, həm də ev şəraitində proseduraları davam etdirmişəm ki, sağlamlığım bərpa olunsun. Amma təəssüflər olsun ki, sağlamlığım bərpa olunmayıb.

Sənədlərimi 10 saylı şəhər poliklinikasına təqdim etdim. Yoxlayandan sonra Əlillərin Bərpa Mərkəzinə göndərdilər. Lakin mənə imtina cavabı gəldi.

Təkrar yenə müraciət etdim. Məni müayinə etdikdən sonra 1 illik müddətinə 3-cü qrup əlillik təyin etdilər. Müayinə zamanı sağlamlığımın 40 faiz olduğunu bildirdilər. Lakin başımdakı zədələri sistemə vurmadılar.

Bildirim ki, xəstəliyimlə əlaqədar mənə verilən əlillik düzgün deyil. Əzələ zəifliyim 3.5 bal ilə qiymətləndirilmişdi. Lakin məni 4 balla sistemə vurublar. Çox yerə şikayət etmişəm. Təəssüflər olsun ki, şikayətimə baxılmır. Ən sonda Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyindən mənə xəstəxanada yatmaq tövsiyə edildi. "Əgər ağırlaşma olarsa, əlilliyin dəyişilə bilər", - dedilər. Daha sonra Dost Mərkəzindən məni Şirvan Reabilitasiya Mərkəzinə göndərdilər. Orada mənim qoluma 2.2, ayaqlarıma isə 3.3 bal yazdılar. Baş ağrılarımın, yüksək təzyiqimin olması da qeyd etdilər.

Bakıya gələndən bir neçə gün sonra vəziyyətim pisləşdi. Məni Tibbi Yardım maşını ilə Əjdər Məlikov adına 6 saylı birləşmiş şəhər xəstəxanasına aparıb, nevrologiya şöbəsinə yerləşdirdilər. Başımda ağrılar, əl-ayaq əsmələri və "panos" xəstəliyi aşkar olundu. Mən getdikcə nitqimi də itirirəm.

Dəqiqləşdirmək üçün Bakı Şəhər Elmi Tətqiqat İnstitutuna getdim. Orada da əzələ zəifliyimi 3 bal kimi qiymətləndirdilər.

Odur ki, sənədlərimi Nərimanov rayon 4 saylı şəhər poliklikasına təqdim etdim. Orada məni və həkimimi təhqir etdilər. Poliklinikada bildirdilər ki, mənə əlillik dərəcəsinin gücləndirilməsi düşmür. Hətta mənə bildirdilər ki, "kimə istəyirsən şikayət edə bilərsən". Mən də Nazirlər Kabinetinə müraciət etdim. Nazirlər Kabinetindən sənədlərimi TƏBİB-ə göndərdilər. Təəssüflər olsun ki, TƏBİB-də işimə baxmır.

TƏBİB-dən bildirdilər ki, biz 4 saylı şəhər poliklinikasının qərarını ləğv edə bilmərik. Mənə orada akt təqdim etdilər. Bildirdilər ki, bal gücləndirilməsini verə bilmərik. Gərək 3 baldan aşağı olsun ki, biz 2-ci qrup əlillik təyin edək.

TƏBİB-dən heç bir soraq yoxdur. Mənə əvvəl dedilər ki, şikayətinizə baxılacaq. Təəssüflər olsun ki, işimə baxılmır. 2 ay müddətində mən bir neçə xəstəxanada yatmışam. Bu qədər haqsızlıq olar?! TƏBİB-ə gedirəm, deyirlər ki, xəstəxanada yat, yoxsa sənədlərini Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi qəbul etməyəcək.

Bir sözlə, TƏBİB saxtakarlıq edir, mənim sənədlərimi sistemə vurmur. Məni məcbur edirlər ki, xəstəxanada yatmalısan.

Mənə deyirlər ki, başındakı zədələr sayılmır, əzələ zəifliyi hesablanır. Başa düşə bilmirəm, 4 saylı poliklinika TƏBİB-ə tabedir, yoxsa TƏBİB 4 saylı poliklinikaya?"

Məsələ ilə bağlı Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Tural Qurbanovla əlaqə saxladıq. O, əməkdaşımıza bildirdi ki, Göygöl rayon sakini, 1965-ci il təvəllüdlü Vəliyev Surxay Sultan oğluna 29.03.2024-cü il tarixdə orqanizm funksiyalarının 40% pozulmasına görə 1 il müddətinə əlillik təyinatı aparılıb:

"Vətəndaş əlillik dərəcəsinin yenidən qiymətləndirilməsi ilə bağlı bir neçə dəfə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin həkim-ekspertləri tərəfindən əyani müayinə edilib.

Hər bir əyani müayinə zamanı S.Vəliyevin hazırki sağlamlıq vəziyyətinin Nazirlər Kabinetinin 187 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları"na uyğun olaraq orqanizm funksiyalarının 40% pozulmasına görə1 il müddətinə əlillik təyinatına əsas verdiyi müəyyən edilib.

Qanunvericilik barədə vətəndaşın özünə də müvafiq izahatlar verilib".

**Aynurə MUSTAFAYEVA**




# "15 min manat versəydim, işlə təmin olunardım"

## Naxçıvan MR sakini, şəhid övladı Sanami Əhmədov rəsmi qurumlardan şikayətçidir

**Naxçıvan Muxtar Respublikası (MR), Sədərək rayonu, Dəmirçi kənd sakini Əhmədov Sanami Etibar oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçinin müraciətini olduğu kimi dərc edirik:**



AZƏRBAYCAN RESPUBLİKASI
NAXÇIVAN MUXTAR RESPUBLİKASININ
SƏHİYYƏ NAZİRLİYİ

Naxçıvan AZ 7000, Ə. Əliyev küçəsi, 120 Tel: (994 036) 545 56 95, Faks: (994 036) 545 26 91
Elektronpoçtu: sehiyye@nakhchivan.az

«25» aprel 2023-cü il

№ 6/557

Şərur rayon, Dəmirçi kənd sakini
Əhmədov Sənami Etibar oğluna

Surəti: "Sədərək Rayon Mərkəzi Xəstəxanası"publik hüquqi şəxsinin baş həkimi Kəmalə İbrahimovaya

Sizin Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinə ünvanlanan 11.04.2023-cü il tarixli məktubunuz aidiyyəti üzrə Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyinə göndərilmişdir.

Ərizənizə cavab olaraq bildirilir ki, "Sədərək Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsində hal-hazırda ambulans sürücüsü vəzifənizə uyğun vakant yer yoxdur.

Vakant yer olduqda sizə köməklik ediləcək. Bu barədə "Sədərək Rayon Mərkəzi Xəstəxanası" publik hüquqi şəxsinin baş həkiminə müvafiq tapşırıq verilmişdir.

Səhiyyə nazirinin vəzifələrini müvəqqəti icra edən: Samiq Sadıxov

"Mən, Əhmədov Sanami Etibar oğlu, yazaraq sizdən xahiş edirəm ki, problemi işıqlandırasınız.

2023-cü ilin aprel ayında Sədərək Rayon İcra Hakimiyyətindən zəng edib, rayon Mərkəzi Xəstəxanasında ambulans sürücüsü kimi işləmək istəyib-istədiyimi soruşdular. Əlavə etdilər ki, şəhid ailələrinə üstünlük verilir. Mən də razı olduğumu bildirdim.

Anamla birgə Səhiyyə Nazirliyinə getdim. Lakin Kadrlar Şöbəsinin müdiri Vüsal bəy bizə bildirdi ki, vakant yer yoxdur. Mən isə dedim ki, axı, bizi bura iş üçün göndəriblər...

Sonra Ali Məclisə getdim, şikayətimi məktub şəklində yazdım. Məktubuma cavab gəldi ki, vakant yer yoxdur, yer olanda çağıracaqlar.

2023-cü ilin avqust ayında anamla yenidən Səhiyyə Nazirliyinə getdim. Nazirliyin əməkdaşı Eminova Aysel Əziz qızı bizi qəbul etdi. Ona bildirdim ki, Sədərək Mərkəzi Xəstəxanasında vakant yer yoxdursa, məni Şərur rayonunda işlə təmin edin. Aysel xanım dedi ki, mənlik deyil, Günəş Qədimovanın qəbuluna gedin. O da bizə bildirdi ki, Şərur rayonunda vacant yer yoxdur.

Bir neçə gün sonra Ali Məclisdən zəng gəldi. Onlar da vakansiya olmadığını dedilər və Məşğulluq Agentliyinə müraciət etməyimizi məsləhət bildilər.

Bütün bunlardan sonra Prezidentin Naxçıvan Muxtar Respublikasında səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin qəbuluna yazıldım. O, 16.11.2024-cü ildə bizi qəbul etdi. Xahiş etdim ki, heç olmasa Şərur rayonunda işlə təmin etsinlər. Bildirdim ki, məndən Sədərək xəstəxanasında sürücü kimi işləmək istəyib-istməmədiyimi soruşdular, amma işə götürmədilər. Əlavə etdim ki, 3 min manat versəydim, indi işləyərdim. Fuad Nəcəfli məndən soruşdu ki, indi neçə min olub? Mən də 15 min manat olduğunu bildirdim.

22.11.2024-cü ildə mənə Məşğulluq Agentliyindən zəng gəldi. İşlə bağlı Ali Məclisə müraciət etdiyimi dedilər və nə iş istədiyimi soruşdular. Dedim ki, xəstəxanada ambulans sürücüsü işləmək istəyirəm. Lakin yenə də işlə təmin olunmadım".

**Aynurə MUSTAFAYEVA**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**




# Üçüncü dünya savaşının bir addımlığında

## ABŞ və ÇİN-in Arktika uğrunda mübarizəsi böyük fəlakətlərə yol aça bilər

**ABŞ prezidenti Donald Tramp Ağ Evin kandarından içəri keçmək üzrə olduğu bir vaxtda Kanada və Qrenlandiyanı ilhaq etmək, körfəzləri yeni adlarla adlandırmaq ismarıcı dünyanı bu məsələlərə fərqli prizmadan baxmağa vadar etdi. Əgər planetin ən güclü, hegemonluq statusu daşıyan bir ölkəsi ilhaqı açıq şəkildə səsləndirirsə, bu, həmin aktın normallaşdırılacağı anlamına gəlir. Yəni yeni şərtlərdən, şəraitdən irəli gələn reallıqların yeni "hüquq", yaxud hüquqsuzluq müstəvisində fərqli formatlar yaratması normal qarşılanacaq.**

Əslində, bu hal yeni deyil. I və II Dünya müharibələrinin nəticəsi bəzi ölkələr üçün daha güclü dövlətlərin orbitinə daxil olmaqla, onların təsir dairəsinə keçməsi ilə yekunlaşmışdı. BMT-nin yaradılması ilə sanki güclülərin zəifləri nüfuz dairəsinə alması, onlara "arxa bağçası" kimi baxması nəzəri arxa plana keçmişdi, amma reallıq fərqli idi. Hamının haqqında danışdığı III Dünya Savaşı hüququn cavab verməsi fonunda "güclünün zəifi ilhaq etməsi" gerçəyini yenidən gündəmə gətirir. Amma burada da maraqlı nüanslar var.

Trampın Qrenlandiyanı almaq istəyinin, əlbəttə ki, ona yamanan "dəlilik" damğası ilə əlaqəsi yoxdur. ABŞ-ın seçilmiş prezidenti sadəcə realistdir və onun yanaşması dünyanın sülhə qovuşması üçün ABŞ və onun Avropadakı forpostlarına Soyuq Müharibə bitdikdən sonra daha "yaxşı" əsas yarada bilər.

Artıq, ən azı bir ölkədə Donald Trampın Qrenlandiya, Kanada və Panama kanalını ilhaq etməklə hədələməsi alqışlarla qarşılanıb. Bu ölkə Rusiya oldu - olduqca "haqlı" səbəblərə görə. Çünki Rusiyanın özünün "arxa bağçası" hesab etdiyi post-sovet ölkələrinə münasibəti kontekstində Trampın "Qrenlandiya açıqlaması" nəinki göydəndüşmə, hətta ilham qaynağı oldu. Amma Rusiya onu anlamır ki, özünün rəftarı Trampın bəyanatı ilə müqayisədə daha vəhşicəsinədir. Əksər ruslar uzun müddətdir ki, Amerikanın "qaydalara əsaslanan nizam" haqqında ritorikasını ABŞ milli maraqları üçün maskarad kostyumu kimi qiymətləndirir. Yəni ABŞ-ın demokratiya və hüquq tələblərini təzyiq üçün vasitə hesab edirlər. Onların fikrincə, Tramp sadəcə özünü ifşa etdi. Bəlkə də Trampın bu açıqlamalarını özlərinə təskinlik kimi qəbul edirlər. Amma növbəti şikarlar sırasında onlar da var.

Burada haşiyə çıxıb, əslində həm ərazi, həm də malik olduğu təsir baxımından imperiya olan ABŞ üçün "Arktikaya açılan cığır olan Qrenalandiya"ya qədər bir iki nüansa göz ata bilərik. Hazırkı dünya hegemonluğu üçün həyati əhəmiyyət kəsb edən mühüm faktor qlobal ticarətin üzərindən yürüdülən və onun şah damarları funksiyasını daşıyan tranzit yollarına nəzarətdir. Bu nünasa daha da dərindən nəzər salaraq deyə bilərik ki, qarşıdan gələn yeni düzənin "açar"larının qlobal ticarət yollarına nəzarət edən dövlətlərin əlində olacağı şübhəsizdir. Görünür, məhz bu həlledici məqamı qavradığına görə, ABŞ dünya ticarətinin həyata keçirildiyi tranzit yollarına nəzarəti əlindən verməməyə, əksinə, prosesə nüfuz etməyə çalışır. Arktikadan dəniz yolu da növbəti qlobal tranzitin bir xətti ola bilər.

ABŞ-ın "hegemon ölkə" statusunu saxlaması və onu itirməmək üçün müqavimət göstərməsi ilk öncə Çinlə rəqabətdə özünü tam çılpaqlığı ilə biruzə verir. Vaşinqton Çinin yüksəlişindən təşviş keçirir. Bu barədə "Təcavüzkar davranışın beyin mexanizmləri", "Müharibə mədəniyyətinin tarixi və sülh fəallarının psixologiyası" üzrə amerikalı mütəxəssis, YUNESKO-nun keçmiş əməkdaşı Devid Adams da elmi müstəvidə maraqlı açıqlama ilə çıxış etdi və Amerika imperiyasının sona çatması faktını əsaslandıran rəy yazdı. Maraqlıdır ki, Adamsın fikrincə, Amerika imperiyası müharibə mədəniyyəti üzərində bərqərar olub və çox güman ki, BRİKS ilə əvəz olunacaq. Amma ABŞ "Deep State"inin çalışmalarını nəzərə alsaq, bunun bir ehtimal olaraq qalacağını güman edə bilərik. Aydındır ki, ABŞ hegemonluq statusunu hər vəchlə qoruyacaq, onu Pekinə verməyəcək.

ABŞ hər zaman Çini iqtisadi müstəvidə Avropaya bağlayan Orta Dəhlizin əhəmiyyətini vurğulayır. Vaşinqton mövqeyini belə ifadə edir ki, Qazaxıstan, Azərbaycan və Gürcüstan "Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu" (TİTR və ya Orta Dəhliz) üçün tranzit marşrutları kimi mühüm rol oynayır. Bunu "RAND Corporation" Araşdırma Təşkilatının baş elmi işçisi, ABŞ-ın Qazaxıstan və Gürcüstandakı keçmiş səfiri Vilyam Kortni də bir il əvvəl eynilə ifadə etmişdi. "Orta Dəhlizin rolu bir neçə səbəbə görə, o cümlədən son vaxtlar Rusiya ərazisindən keçən dəniz nəqliyyatının artan siyasi riski ilə əlaqədar artır", - deyə sabiq səfir vurğulamışdı.

Kortni qeyd etmişdi ki, Qərbin Ukraynadakı müharibəyə görə tətbiq etdiyi sanksiyalar Rusiyanın Avropa dəmir yolu nəqliyyat marşrutlarına çıxışını məhdudlaşdırıb. Son günlərdə Ukrayna ümumiyyətlə ərazisindən rus qazının tranzitini tam dayandırdı.

Tramp hakimiyyətə qayıdışına "İlk öncə Amerika", "Amerikanı yenidən möhtəşəm edək" devizi ilə gəlmişdi. Bu deviz öncə belə təəssürat yaradırdı ki, ABŞ beynəlxalq hegemon statusundan əl çəkib, daxili problemlərin həllinə yönələcək. Bəlkə də elə ABŞ-ın beyin mərkəzləri tərəfindən təlqin edilən fikir bu idi. Məqsəd onun hegemonluğuna göz dikən ölkələri duyuq salmamaq, fikir sapdırmaq idi. Amma Trampın son ilhaq açıqlamaları onu deməyə əsas verir ki, ABŞ öz içinə qapanmayacaq, əksinə daha da genişlənməyə can atacaq. Doğrudur, onun ətrafı əleyhdarları - Çinə tərəf ölkələr tərəfindən sarılır, amma ABŞ əks həmləyə keçir.

Qrenlandiyaya sahib olmaq iddiasına düşməksə, Arktikaya - şimaldan Rusiyanın başının üstünü almağın xəbərçisidir. Rusiyanı "qınına qapatmaqdır".

Bəs, ABŞ-ın köhnə dünyanın təmsilçisi qismində yeni dünyanın təmsilçisi Çinə müqaviməti onu deməyə əsas verirmi ki, bəşəriyyət bütün sferalarda iki qütbə bölünərək yaşayacaq? ABŞ bunu etməyə nə qədər müyəssər olacaq? Belə anlaşılır ki, ABŞ özünü "dünyanın mərkəzinə qoymaq" mübarizəsini sona qədər aparacaq. Başqa sözlə, Vaşqinton "Amerikayönlü qlobal dövlət" qurmağa çalışır. İlkin mərhələ kimi, o Çinin təsir arealına mümkün qədər az ərazinin düşməsinə çalışır. Belə ki, Birləşmiş Ştatlar birtərəfli qaydada öz ərazisini bir milyon kvadrat kilometrə qədər genişləndirərək, kontinental şelfin Arktika, Atlantik, Berinq dənizi, Sakit Okean və Meksika körfəzi və Mariana adaları sahillərində potensial resurslarla zəngin ərazilərinə qədər "qanad açıb". ABŞ Dövlət Departamenti də bildirib ki, Birləşmiş Ştatlar kontinental şelfini genişləndirməklə, yeni ölkənin quru ərazisinin su altında davam etməsini təmin etməklə Arktikada nəzarət zonasını artırıb.



Arktikada hər şey ləng gedir. Buzlaqlar əriyir, qütb ayıları hardasa gəzir, buzlar və aysberqlər sürünür. Şimal Buzlu Okeanının dibindəki sərvətlərə kimin sahibləncəyi ilə bağlı çoxdan şiddətli mübarizə gedirdi və indi bu regionda öz maraqlarını bəyan edən dövlətlər, "Qızıla hücum"un qızılaxtaranları kimi, "suiqəsd planları hazırlayırlar.

Buna reaksiya çox əsəbidir. Rusiya Federasiya Şurası artıq bəyan edib ki, onların da bu zonaya "hüquqları var" və öz maraqlarını müdafiə etməyə hazırdırlar. Rusiya Dumasının deputatları hətta ABŞ-ın Rusiya ilə mübahisəli su ərazisinin bir hissəsini az qala zəbt etdiyini deməyə başlayıblar.

ABŞ isə suların 200 millik iqtisadi zonadan kənara çıxan hissəsini özünə məxsus elan edərək, beynəlxalq suları da əhatə edəcək şəkildə özünün Arktika sektoru çərçivəsində ərazi iddialarını genişləndirib. Bu baxımdan, bir müddət əvvəl Moskva Kanada və Danimarkanın eksklüziv iqtisadi zonalarında (Qrenlandiya vasitəsilə) yerləşən Arktika şelfinin təxminən 705 min kvadrat kilometr ərazisinə iddialarını bəyan etdiyi sənəd qəbul edib. Həmçinin, Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin (FSB) bölgədəki əsas ticarət marşrutu - Şimal Dəniz Yolunda "xarici təsirlərə və işğallara qarşı mübarizə" proqramı qəbul edilib. Ukraynanın işğalı Rusiyanın Arktikasının hərbiləşdirilməsinin intensivliyini ləngitdi - lakin prosesi dayandırmadı. Belə ki, bu yaxınlarda qəbul edilmiş 55 səhifəlik Rusiya dəniz doktrinasında Arktika 22 səhifədə qeyd olunub. Amma asılı olduğu Qərb texnologiyaları olmasa, Kreml Arktikanı necə inkişaf etdirəcək?

Katolik Milad bayramı ərəfəsində xarici investorlar, o cümlədən Çin CNPC və CNOOC və Yaponiyanın Mitsui və JOGMEC konsorsiumları, Arctic LNG-2 layihəsində iştirakını donduraraq, Rusiyanın mayeləşdirilmiş qaz hasilatı və istehsalı sənayesinə son qoydular. Bu, Rusiya rəhbərliyinin böyük pul qoyduğu əsas pilot Arktika layihəsi idi. Şimal dəniz marşrutu, qütb aviasiyası və daha çox gəmiqayırma sahəsində oxşar layihələr var ki, onlar Rusiyanın müvafiq texnologiyalarına malik olmadığı üçün dayanıb.

Moskva, əlbəttə ki, Arktikanı, yalnız inadkarlığına görə hərbiləşdirməni davam etdirəcək. Amma bu, sözün əsl mənasında "dondurulmuş pul" olacaq. Arktikadakı rəqiblərinin isə texnologiyaları inkişaf etdirmək, birgə istehsal, infrastruktur və logistika yaratmaq üçün səmərəli istifadə oluna biləcək vaxtı var.

İstənilən döyüş və qarşıdan gələn onillik "Arktika üçün mübarizə" onilliyi olacaq, onun resursları və yeni ticarət yolları uğrunda döyüşdür, hansı ki, bu da qlobal transformasiyadan əvvəlki hazırlıq mərhələsidir.

Rusiya burada uduzdu, Arktika üçün resursları Ukraynada itirdi. Deməli, üz-üzə Amerika və Çin olacaq. Artika uğrunda savaş gedişatında əsas şikar Rusiya ola bilər. Arktika savaşı ABŞ-la Çini Rusiyanı "həzmrabedən keçirərək udmaq" niyyətindən yayındırmamalıdır. Abbas Səhhətin "Ayı və Şir" təmsilindəki hekayədə olduğu kimi, ABŞ və Çin birbiri ilə didişib, gücdən-taqətdən düşdükdən sonra ortalıqda qalan şikarı-dovşanı tülkünün - Rusiyanın qamarlamaması üçün parçalanacaq əsas ov elə Rusiyanın özü olmalıdır. Əslində, Çin hiyləgərliyi tülkü obrazında daha yerinə düşür...

**Ülviyyə ŞÜKÜROVA**

**Rusiyalılar üç il öncə Ukraynaya hücum edəndə bunu “yüngül gəzinti” hesab edirdilər. Onlar düşünrdülər ki, tezliklə paytaxt Kiyevi ələ keçirəcəklər, ukraynalı hərbçilər isə müqavimətin əbəs olduğunu anlayıb könüllü surətdə silahı yerə qoyacaqlar. Hətta Vladimir Putin müharibənin ilk günündə Ukrayna ordusuna təslim olmaları barədə müraciət də ünvanlamışdı. Zaman təriflərə sığmayan Rusiya ordusunun səriştəsizliyini bütün çılpaqlığı ilə ortaya qoydu.**




# Rusiya Ukraynanı nə qədər vaxta işğal edə bilər?

## ABŞ mediası: “Müharibə ya heç-heçə bitəcək, ya da...”

Bu gün Rusiya Ukrayna ilə müqayisədə daha güclü resursa malik olması sayəsində savaşa bilir. Kreml üçün isə insan itkisi əhəmiyyət kəsb etmir. Rusiya ordusu təkcə 2024-cü ildə cüzi miqdarda ərazi işğal etmək üçün 400 mindən artıq itki verib. Hadisələrin gedişinə diqqət edəndə, sual yaranır ki, görəsən, bu minvalla Kiyevə çatması üçün Rusiya ordusuna nə qədər vaxt lazımdır və o, bu yolda neçə əsgər qurban verəcək.

Ancaq qəribə odur ki, bir çox




## “Rusiya hərbi maşını məğlubedilməz deyil”

Qərb analitiki hələ də Rusiya ordusunun qüdrətindən dəm vururlar.

ABŞ-nin “The Hill” qəzeti “Rusiyanın Ukraynadakı ərazi zəbtinin hesablanması” başlıqlı məqaləsində sözügedən məsələyə toxunur.

Həmin məqaləni təqdim edirik: ”Kiyev sakinləri təlaş içindədir! Vladimir Putinin qarşısıalınmaz ordusunun Ukraynanı işğal etmə sürəti elədir ki, 92 ildən sonra onlar paytaxt Kiyevi zəbt edəcəklər. Bu hadisə rus diktatorunun 165 illik yubileyində baş tutacaq və təntənəli surətdə qeyd ediləcək!

Hərçənd ki, yuxarıdakı abzasda yazılanlar kiməsə axmaqcasına görünə bilər. Ancaq bu cümlələr Kreml və onun Qərbdəki dostlarının müharibə ilə bağlı yanaşmalarının absurdluğunu ortaya qoymaq üçün istifadə edilib. Qərbdəki həmin şəxslərin nöqteyi nəzərinə əsasən qüdrətli Rusiya ordusu Ukraynanın geniş ərazilərini zəbt edir, ukraynalılar isə say və silah cəhətdən onlardan geri qalsalar da, çarəsizcəsinə və hətta qəhrəmancasına müqavimət göstərirlər. Amma ortada hər hansı uğur yoxdur və ruslar Ukraynanı tam zəbt etməyənə kimi hücumu dayandırmayacaqlar. Ona görə də Ukrayna və onun müttəfiqləri bu gün istənilən sülh sasişinə razılaşmalıdırlar, əks təqdirdə gələcəkdə vəziyyət yalnız pisləşə bilər.

Bu yanaşama yalnız kimlərinsə fikridir və onun real zəmini yoxdur. Burada təəccüblü olan isə heç də həmin fikrin Kreml tərəfindən irəli sürülməsi deyil. Məsələ ondadır ki, əksər Qərb analitikləri belə bir yanaşmanı dinməzcəsinə qəbul edirlər. Onların bunun axmaq bir yanaşma olduğunu anlamaları üçün elementar hesablamaya baş vurmaları çox yaxşı olardı.

Ukraynalı analitiklərdən birinin hesablamasına görə, Rusiya 2024-cü ildə 2600 kavdrat kilometr Ukrayna ərazisini işğal edib (ISW bunun 4168 kvadrat kilometr olduğunu bildirir). Ukraynanın Dnepr çayından şərqdəki sol sahilinin ərazisi 240 min kvadrat kilometrdir. Əvvəla hesab edək ki, Kiyev sol sahildə yerləşir və sonra isə 240 mini 2600-ə bölək. Deməli, indiki templə Ukraynanın bütün sol sahilini işğal etmək üçün Rusiyaya 92 il vaxt lazım olacaq (Əgər alternativ olaraq 240 mini 4168-ə bölsək,onda bunun üçün 58 il tələb olunacaq).

Beləliklə, Rusiya tədrici uğurlar əldə edir, ancaq bu nailiyyətlər blitskriqdən çox uzaqdır. Rəqəmləri müqayisə edin və nəticə çıxarın ki, Rusiya məğlubedilməz hərbi maşın deyil. Putinin quldur dəstəsi üçün faktlar daha acınacaqlıdır. Yalnız 2024-cü ildə Rusiya ölü və ağır yaralı olmaqla 427 min nəfər itirib. Bu rəqəmi Rusiyanın Ukraynada işğal etdiyi 2600 kvadrat kilometrə bölün. Nəticəyə diqqət etsəniz görərsiniz ki, Rusiya hər kvadrat kilometr uğrunda 164 nəfər itirib. İndi isə 164-ü Dneprdən şərqdə yerləşən Ukraynanın 240 min kilometrlik ərazisinə vurun. Deməli, proqnozlaşdırılan 92 il ərzində Rusiya 39 milyon nəfər itirməlidir ki, sözügedən ərazini zəbt edə bilsin.

Rəqəmlər Rusiyanın yenilməzliyinimi göstərir? Xeyr, siyasi səbəblərə görə Qərbin Ukraynaya lazımi qədər hərbi təchizat göndərməkdə tərəddüd etməsinə baxmayraq, ukraynalılar düşmənə böyük itkilər verdiriblər.

Bəs, rəqəmlər Rusiyanın qələbə qazanacağından xəbər verirmi? Biz böyük itkilər və çökməkdə olan iqtisadiyyat hesabına sürünərək ərazi işğalını qələbəmi hesab edək? Ən yaxşı halda müharibə heç-heçə ilə bitəcək. Rusiya ilə müqayisədə Ukraynanın iqtisadi, material və insan resurslarını nəzərə alsaq, deyə bilərik ki, heç-heçə əslində Ukraynanın qələbə qazanması anlamına gəlir.

İndi bir anlığa təsəvvürünüzə gətirin ki, ABŞ Meksikaya soxulur və özünün ilk hücumunda tutduğu ərazinin yarısını tezliklə əldən verir, sonrakı bir il müddətində isə çox cüzi irəliləyir və 427 min əsgər itirir. Heç bir amerikalı bunu uğur adlandırmaz, meksikalılar isə “yanki imperializmi”nin qarşısını ala bildiklərinə görə şadyanalıq edərlər.

Əlbəttə, şübhəsiz ki, biz tam dolğun təhlil aparmırıq. Bildiyimiz kimi, Ukrayna minlərlə əsgər və dinc sakin itirib, onun çoxsaylı şəhərləri və infrastrukturu dağıdılıb, Rusiya Ukraynanın ərazisinin beşdə birini hələ də işğal altında saxlayır. Lakin Rusiyanın Ukrayna ilə müqayisədə praktik baxımdan hər şeydə üstünlüyünü nəzərə alsaq, bu itkilər ya heç-heçəni, ya da ki, Kiyevin cüzi qələbəsini göstərir.

Ümumən belə nəticə çıxarmaq olar ki, bu gün Ukrayna və onun müttəfiqləri hər hansı sülh sazişi ilə razılaşmamalıdırlar. Çünki gələcək Rusiya üçün indikindən daha pis ola bilər. Əgər belədirsə, bəs onda Qərb analitikləri nəyə görə Kremlin danışıqlarına inanırlar və Rusiyanın uğurları barədə cəfəngiyyatları davam etdirilər?

Bunların bəziləri sadəcə, Moskvanın yol yoldaşlarıdır. İlk növbədə Macarıstanın Baş naziri Viktor Orban və Slovakiyanın Baş naziri Robert Fitso yada düşür. Onlar Ukraynanın çəkdiyi əzablardan narahat olduqları görüntüsü yaradırlar. Amma Avstriyadakı “Azadlıq Partiyası”, Almaniyadakı “Almaniya üçün alternativ” və bəzi “MAGA” Respublikaçıları kimi onlar da Putinin ideoloji və siyasi müttəfiqləridir. Çox təəssüf ki, hesablamağı yaxşı bacaran İlon Mask da həmin düşərgəyə yaxınlaşır.

Elələri var ki, faktlara məhəl qoymadan öz fərziyələrində israr edirlər. Bu cür çürük ideyalar üzərində karyeralarını quranlar sifətlərini itirməyəcəklərini zənn edirlər.

Digərləri isə Kremlə və onun nəql etdiyi rəvayətlərə yumşaq yanaşırlar. Çünki onların nifrət etdiyi Bayden administrasiyası Putinə qarşı kifayət qədər sərt siyasi mövqe tutub. Belə anlaşılır ki, bəziləri “düşmənimin düşməni mənim dostumdur” şüarı əsasında Rusiyanın yanında yer alırlar. Baxmyaraq ki, Rusiya onların dəstəklədikləri dəyərləri kobudcasına pozur.

Pis xəbər odur ki, hətta intelektual qabiliyyəti yüksək olan adamlar içərisində də Putinin təbliğatının əsl mahiyyətini anlamayanlar var. Yaxşı xəbər odur ki, rəqəmlər yalan danışmır və faktlar boş nağıllardan həmişə üstün olur. Düzdür, bu, dərhal baş vermir, lakin son nəhayətdə hər şey öz yerini alır”.

**V. NƏSİBOV**




# Məmurların "ötür-ötür oyunu"

## Sabirabad sakini sosial yardım verilməməsindən şikayətçidir

**Sabirabad rayonu, Əhmədabad kənd sakini Davrişova Narxanım Paşa qızı tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. O, sosial yardım verilməməsindən şikayətçidir:**



"Məlumat verim ki, həyat yoldaşım 5-6 il əvvəl vəfat edib. Bir oğlum var, bu ay əsgər aparacaqlar.

Həyat yoldaşımın pensiyasın da oğlumun adına alırdıq. Oğlum Türkiyədə universitetə qəbul oldu. Oraya oxumağa gedəndə pensiya kəsildi.

Mənim heç nəyim yoxdur. Bir inəyim vardı, onu da oğlumun Türkiyədə yaşaması üçün satdım. Kasıbçılığa görə, oğlumu Türkiyədə oxutdura bilmədim. Çünki ona göndərməyə pulum olmadı. Oğlum da universiteti yarımcıq qoyub, Türkiyədən qayıtdı.

İndi deyirlər ki, hərbi xidmətə getdikdən sonra yenə də pensiya verilməyəcək.

Ünvanlı sosial yardım almaq üçün, bizə məxsus torpaqla bağlı iki ildir nə dedilərsə düzəldib verdim. Dövlət Sosial Müdafiə Fondunun Sabirabad Rayon Şöbəsinin müdiri Cavid müəllim deyir ki, hər ay otuz manat ödəməlisiniz. Mən də hər dəfə pulu ödədim.

Ünvanlı sosial yardım almaq üçün 5-6 dəfə müraciət etmişəm. Lakin hər dəfə imtina cavabı verildi.

Qeyd edim ki, qonşudan biraz borc pul alıb, sentyabr ayında Bakıya Sosial Müdafiə Nazirliyinə gəldim. Bir cavan oğlan məni qəbul etdi. Mənə bildirdi ki, ailə başçın olmadığına görə, pensiyanı da, sosial müavinətini də alacaqsan.

Mən yenidən Dövlət Sosial Müdafiə Fondunun Sabirabad Rayon Şöbəsinin müdiri Cavid müəllimin yanına gəldim. Mənə dedi ki, sənə yenə də imtina verilib, sənədlərini yenidən göndər.

Onu da vurğulayım ki, 30 manatdan başqa, hər dəfə o sənədləri göndərən komputerçi Aslan bəyə də pul verirdim. Noyabrın sonunda yenidən Cavid müəllimin yanına getdim. Dedi ki, yenə sənə imtina verilib. Əlavə etdi ki, 1 il sənəd göndərə bilmərəm.

Mən nə edim? Necə dolanım? Yeganə oğlumu da əsgər aparırlar. Xahiş edirəm, mənə köməklik göstərin".

Məsələ ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun İctimaiyyətlə əlaqələr departamentinin müdiri Rəşad Mehdili ilə əlaqə saxladıq. O, əməkdaşımıza bildirdi ki, Sabirabad rayon sakini Davrişova Narxanım Paşa qızının ünvanlı sosial yardımla bağlı elektron sistemə sonuncu müraciəti bu il sentyabrın 25-də olub. Ailənin sosial yardım almaq hüququna baxılarkən müəyyən edilib ki, N.Davrişovanın məşğulluğu torpaq pay mülkiyyəti ilə təmin edilsə də, sahibkarlıq fəaliyyəti üzrə gəlirlərinə dair "ərizə-bəyannamə"də qeyd olunmuş məlumat öz təsdiqini tapmayıb. Bu səbəblə, ailəyə 25.11.2024-cü il tarixində sistem tərəfindən imtina verilib.

**Aynurə MUSTAFAYEVA**

# Hakim Qalib Paşayevin adı hallanan dələduzluq faktı



## Cəllilabad sakini oyuna gətirilərək, külli miqdarda maddi zərərə salınıb

**Cəlilabad rayonu, Şiləvəngə kənd sakini Hüseynov Aydın Ağaxan oğlu tərəfindən Hurriyyet.az saytının redaksiyasına şikayət məktubu daxil olub. Dələduzluqla üzləşdiyini bildirən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

"Mən, Hüseynov Aydın Ağaxan oğlu, yazaraq bildirirəm ki, usta kimi fəaliyyət göstərirəm. 2014-cü ildə kredit götürmək üçün "Bank Respublika"ya müraciət etdim. Həmin vaxt 38 min 200 dollarlıq sənədə qol çəksəm də, mənə cəmi 23 min 800 dollar verdilər. Dedilər ki, qalan 14 min 400 dolları bir ay sonra verəcəyik.

1 ay tamam olmamış, həmin bankın filial müdirini işdən çıxardılar. Bu səbəbdən, bankdan götürməli olduğum 14 min 400 dolları ala bilmədim. Nəticədə, 2 ay sonra məhkəməyə müraciət etməyi qərara aldım.

Məhkəmənin həyətində qonşu kənddə yaşayan İbadov Natiq Əlşad oğluna rast gəldim. Həmin şəxs bütün günü məhkəmədə olduğundan, başıma gələnləri ona danışıb, vəkil lazım olduğunu dedim. Məni özünün tanışı olan Sadıqova Nuranə Məmmədtağı qızı ilə tanış edəcəyini bildirdi. Daha sonra qeyd etdi ki, Nuranə əslən lənkəranlıdır və mənim nigahdan kənar 2-ci həyat yoldaşımdır, ondan 1 oğlum da var. Əlavə etdi ki, Bakıya getsək, o, sənə kömək edəcək.

Bir neçə gün sonra axşam saatlarında zəng vurub dedi ki, istəyirsənsə sənədlərini götür, gedək Bakıya. O, Nuranə ilə məni görüşdürüb, işimi həll edəcəkdi. Mən Bakıya getməyə raz oldum. Getdik Bakıya, biz çayxanada gözlədik, təxminən 30-35 dəqiqə sonra Natiq qadın və uşaqla birgə qayıtdı. Özünü vəkil kimi təqdim edən həmin qadın sənədlərimə baxar-baxmaz dedi ki, "bu işin xərci çoxdur". Mənə bildirdi ki, "Cəlilabada gedib-gələcəm, bir neçə adama pul verəcəm, sən isə mənə 3 illik etibarnamə verəcəksən. Əlavə olaraq bildirdi ki, iş haqqı olaraq səndən 5 min manat pul alacam". Daha sonra mənim telefon nömrəmi götürdü.

Onu da deyim ki, görüşə oğlumla getmişdim. Söhbət zamanı onun işsiz olduğunu bilib, dedi ki, oğlunu da banka işə düzəldərik.

Həmin gün oğlumla rayona qayıtdıq. Axşamı zəng vurub mənə dedi ki, razısansa pulu və etibarnaməni ver. 6 iyul 2017-ci ildə Nuranə Sadıqovaya 3 illik etibarnamə verdim. "Pulu hazırla, gəlib rayondan götürəcəyəm", - dedi. Həmçinin, qeyd etdi ki, "sizin rayona baş müstəntiq Vüqar Şəbəndiyev gəlib, onun əli ilə işinizə kömək edəcəyəm".

Bir-iki gün keçmiş yenə mənə zəng vurdu ki, Vüqar Şəbəndiyev sənin işini boynuna götürdü, pul hazır olanda mənə xəbər ver. Bildirdim ki, 6-cı gün gələrsən. 6-cı gün səhər məhkəmənin önündə, Natiqin iştirakı ilə, Nuranəyə 5 min manat pul verdim. Pulu sumkasına qoyub, polis binasına sarı getdi. 40 dəqiqə sonra qayıtdı və bildirdi ki, 1-2 günə çağırıb, izahatını alacaqlar.

Həqiqətən də Vüqar Şəbəndiyev 10 gün sonra mənə zeng edib, polisə izahat verməyimi istədi.

Bu olanlardan sonra Nuranə Sadıqova mənə dedi ki, oğlun üçün iş tapmışam. Mən oğlum vasitəsilə bu qadına 3 min manat, bir neçə gün sonra isə 2 min manat göndərmişəm. Bu ərəfədə Natiqlə də demək olar ki, hər gün görüşürdük. Pulların mənə qaytarılacağına dair vədlər verirdi. "Bir çox məhkəmələrdə əlaqələrim, dostlarım var", - deyirdi. Cəlilabad şəhərində Qalib Paşayev kimi bir dostunun da olduğunu deyirdi.

2 il bu adamla dost münasibətində olduq. 2019-cu il, sentyabrın 20-də Natiq İbadov məndən 5000 dollar pul istədi, verdim. 24 sentyabrda Rusiyaya getməli oldum. Oktyabrın 7-də işlərimin heç birindən xəbər çıxmayınca, onlara zəng vurub verdiyim pulları geri istədim. Bildirdim ki, burada "pres bağlayan" alacam. Çox cəhddən sonra 5 min dollar göndərdi.

Mən Rusiyadan qayıtdıqdan sonra Natiqlə görüşdüm. Natiq bilmədən ağzından qaçırdı ki, Nuranəyə əvvəl sələmə pul verirdim. Bundan əsəbləşib onun ağzına bir yumruq vurdum. Fikirləşdim ki, bu gedib məni polisə şikayət edəcək. O, məni məhkəməyə verdi. Məhkəmədə ona verdiyim pulları öz adına çıxdı. 21 dekabr 2021-ci ildə hakimi Qalib Paşayev mənim iştirakım olmadan, onun xeyrinə qətnamə çıxardı. Mən bu qətnamənin varlığı haqqında 21 iyun 2022-ci il tarixində xəbər tutmuşam.

Bundan sonra mənim həyatım pis günə düşdü. Bildirmək istəyirəm ki, Natiq və Nuranə kimi dələduzların arxasında Qalib Paşayev kimi hakim durur. Bu səbəbdən də onlar hələ çox adamı aldadacaqlar".

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Yazıda adları qeyd olunan qurumların və şəxslərin mövqeyini dərc etməyə hazırıq.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

> "Yeniyetmə və gəncləri narkotikdən uzaq tutmaq üçün ilk növbədə maarifləndirmə aparılmalıdır. Məktəblərdə və universitetlərdə narkotiklərin fiziki, psixoloji və sosial zərərləri haqqında ətraflı məlumat verilməlidir. Gənclər narkomaniyanın qısamüddətli "zövq" yaratmaqdan daha çox, uzunmüddətli zərər verdiyini anlamalıdırlar".

# Narkomaniyadan xilas yolları...

## Klinik psixoloq Leyla Məmişova: "Dövlət narkomanların ailələrinə də psixoloji dəstək verməlidir"



**Bu haqda Bakı Şəhər Narkoloji Mərkəzin klinik psixoloqu Leyla Məmişova bildirib. Günümüzdə narkomaniya ilə mübarizənin hər bir cəmiyyət üçün zəruri olduğunu qeyd edən L.Məmişova deyir ki, bunun üçün ilk növbədə yeniyetmə və gəncləri sağlam həyat tərzinə yönləndirmək lazımdır: "Onların asudə vaxtlarını sağlam və faydalı şəkildə keçirmələri üçün idman tədbirləri, rəqs, musiqi və digər mədəni fəaliyyətlər təşkil edilməlidir. Aktiv və məşğul həyat tərzi narkotiklərə marağı azaltmağa kömək edir".**

*(Əvvəli ötən sayımızda)*

Leyla Məmişova vurğuladı ki, narkomaniyanın zərərləri ilə bağlı maarifləndirmə işi erkən yaşlardan başlamalıdır: "Çünki gənclər, xüsusilə yeniyetmələr və orta məktəb şagirdləri narkotiklərin təsiri altına düşə biləcək ən həssas yaş qrupudur. Bu səbəbdən, maarifləndirmə fəaliyyətləri gəncləri sağlam həyat tərzini qəbul etməyə və zərərli vərdişlərdən uzaq durmağa yönəltməli, həmçinin narkomaniya ilə mübarizədə onların fəal iştirakını təmin etməlidir.

Maarifləndirmə işinə başlanması üçün ən ideal dövr 10-12 yaş arasındadır. Bu yaş dövründə uşaqlar və yeniyetmələr artıq sosial və psixoloji inkişaf mərhələsində olurlar və narkotiklərin təsirlərini başa düşə biləcək səviyyəyə gəlirlər.

İbtidai siniflərdə (1-5-ci siniflər) oxuyan şagirdlərə narkotiklərə və digər zərərli vərdişlərə qarşı ümumi məlumatlar verilməli, uşaqların sağlam həyat tərzi barədə bilikləri artırılmalıdır. Burada əsasən təlimatlar və sadə təsvirlər, məsələn, narkotiklərin vücud və ruhi vəziyyətə necə təsir etdiyi, sağlamlıq problemlərinə səbəb ola biləcəyi kimi məqamlar üzərində dayanıla bilər.

Orta siniflərdə (6-9-cu siniflər) daha dərin və elmi yanaşmalar tətbiq edilməli, narkotik maddələrin insan orqanizminə və psixikasına təsiri, sosial və hüquqi nəticələri, eləcə də zərərli vərdişlərin formalaşması ilə bağlı müzakirələr aparılmalıdır. Orta məktəblərdə qrup şəklində müzakirələr, qonaqların dəvəti ilə seminarlar və təqdimatlar təşkil oluna bilər".

L.Məmişova hesab edir ki, orta məktəblərdə sağlam həyat tərzi və düzgün qidalanma, fiziki fəaliyyət və psixoloji sağlamlıq məsələləri barədə maarifləndirmə tədbirləri təşkil edilməlidir: "Məktəblərdə narkomaniya ilə bağlı müzakirələr, qonaqların iştirak etdiyi seminarlar və mövzu ilə bağlı praktik təcrübələr, yeni narkotiklərin zərərləri ilə bağlı təsirli video və real həyat nümunələri təşkil edilə bilər.

Məşhur şəxslərin, mütəxəssislərin (psixoloqlar, narkoloqlar) iştirak etdiyi təlimlər şagirdlərin diqqətini daha çox cəlb edə bilər.

Məktəblərdə uşaqlara təzyiq altında qalmaq, düzgün qərarlar qəbul etmək və stresslə başa çıxmaq bacarıqları öyrədilməlidir. Bu, narkotiklərin cazibəsinə düşməmək üçün vacibdir".

Leyla xanım belə düşünür ki, Azərbaycanda narkomaniyanın yeniyetmə və gənclər arasında yayılması çoxşaxəli və mürəkkəb bir problemdir: "Biz bu problemdə əsasən 3 faktordan danışırıq: sosial, bioloji, psixoloji. Bioloji faktorlar dedikdə, burada genetik meyllilik nəzərdə tutulur. Ailə üzvləri arasında narkotik asılılığı olan gənclər risk qrupuna aid edilir. Bir çox gənc narkotiklərə stress və təzyiqlərdən qaçmaq məqsədilə müraciət edir. Təhsil təzyiqləri, ailə və sosial münasibətlər, şəxsi uğursuzluqlar gəncləri əhval-ruhiyyə pozuntularına və depressiyaya itələyə bilər. Ailədaxili münasibətlər, xüsusilə də valideynlər arasındakı münaqişələr və zorakılıq, uşaqlarda emosional və psixoloji problemlərə yol aça bilər. Belə şəraitdə, gənclər özlərini təcrid olunmuş və kimsəsiz hiss edə bilər və narkotiklər bu boşluğu doldurmaq üçün bir vasitə kimi görünə bilər. Eyni zamanda, ailənin narkotiklərə qarşı laqeydliyi və ya məhdud məlumatlandırma səviyyəsi də bu problemə təkan verə bilər.

Gənclərin əksəriyyəti öz həyatlarının ilkin illərində mühitin təsirində olur. Düşüncələr, davranışlar və seçimlər ətraf mühitdən və cəmiyyətin müxtəlif qruplarından asılıdır. Sosial qruplar (dostlar, sinif yoldaşları) narkotik maddələrin istifadəsini normal bir davranış olaraq qəbul edirsə, bu, gəncləri həmin vərdişlərə yönəldir.

Düşüncəyə təsir edən digər bir faktor da mediadır. Narkotiklərin "cool" və ya "məşhur" bir həyat tərzinin bir hissəsi kimi təqdim olunması gənclərin bu cür maddələrə cəlb edilməsinə səbəb ola bilər".

Leyla Məmişova deyir ki, narkomanların müalicəsində psixoloji faktor olduqca vacib və mərkəzi bir rol oynayır: "Narkotik asılılığı yalnız fizioloji bir problem deyil, eyni zamanda dərin psixoloji və emosional təsirləri olan bir vəziyyətdir. Narkotik maddələrə qarşı yaranan asılılıq, beyindəki kimyəvi dəyişikliklərlə yanaşı, şəxsin psixoloji vəziyyətinə, şəxsiyyətinə, həyat təcrübələrinə və davranışlarına da təsir göstərir. Narkomaniya insanların həyatlarında müəyyən emosional və psixoloji boşluqları doldurmaq, ağrıları və təzyiqləri azaltmaq məqsədilə istifadə etdiyi bir davranışdır. Bəzən insanlar narkotik maddələrə yalnız dərman kimi yanaşmır, eyni zamanda stress, narahatlıq, depressiya və digər emosional problemlərdən qaçmaq üçün istifadə edirlər. Bu səbəbdən narkotiklərin istifadəsi şəxsiyyətin formalaşdığı və emosional vəziyyətin şəkilləndiyi bir psixoloji xüsusiyyətdir. Belə vəziyyətlərdə psixoloji dəstək, bu asılılıqdan azad olmağı təmin etmək üçün əsas amildir. Odur ki, narkomaniyanın müalicəsi yalnız dərmanlarla məhdudlaşmamalı, həm də psixoloji dəstək və terapiya üsullarını əhatə etməlidir.

Narkomaniya müalicəsində psixoloji faktorlar yalnız asılılığın fiziki simptomlarını aradan qaldırmaqla kifayətlənmir, eyni zamanda şəxsiyyətin formalaşmasında və narkotiklərin istifadəsinin psixoloji səbəblərinin aradan qaldırılmasında vacib rol oynayır. Psixoterapiya, narkomanların müalicəsi üçün güclü bir vasitədir və narkomaniyadan azad olmağın yolunu açır. Yalnız fiziki müalicə ilə yanaşı, psixoloji dəstək və terapiya metodları narkotik asılılığını tam olaraq məğlub etməyə kömək edir".

Həmsöhbətimiz hesab edir ki, narkomaniyanın müalicə mərkəzlərinə olan əlçatanlıq narkomanların reabilitasiya prosesinin uğuru və effektivliyi üçün əsas şərtlərdən biridir: "Narkomaniya yalnız fərdi problem deyil, həm də cəmiyyətin geniş təbəqələrinə təsir edən ciddi bir sosial xəstəlikdir. Bu səbəbdən, narkotik asılılığı ilə mübarizədə dövlətin fəal iştirakı çox vacibdir. Dövlətin müalicə mərkəzlərinə əlçatanlığı artırmaq məqsədilə atacağı addımlar, həm müalicə keyfiyyətini yüksəltməyə, həm də narkomaniyaya qarşı mübarizəni daha effektiv etməyə yönəlməlidir.

Əlçatanlıq məsələsi müalicə mərkəzlərinin coğrafi mövqeyindən başlayır. Bu mərkəzlərin yalnız böyük şəhərlərdə deyil, həmçinin ucqar bölgələrdə və regionlarda da fəaliyyət göstərməsi vacibdir. Dövlət, bu mərkəzlərin ölkənin müxtəlif bölgələrində yayılmasını təmin etməli, müxtəlif coğrafi ərazilərdə narkotik asılılığı ilə mübarizə aparmaq istəyən insanlara müalicə xidmətləri təqdim etməlidir.

Narkotik asılılığı müalicəsi maddi cəhətdən yüksək xərc tələb edən bir prosesdir. Bununla yanaşı, bir çox narkomanın maddi imkanları bu müalicələri qarşılamaya bilər. Müalicə mərkəzlərinin dövlət təminatında olması, eyni zamanda bu xidmətlərə müraciət edən şəxslərin heç bir iqtisadi maneə ilə üzləşməməsini təmin edəcəkdir. Bu, sosial bərabərliyin qorunmasına və müalicəyə ehtiyacı olan hər kəsin bu xidmətlərdən faydalanmasına imkan verəcəkdir.

Dövlət narkomaniyanın müalicəsinin əhəmiyyəti barədə geniş maarifləndirmə işləri aparmalıdır. Bəzi insanlar narkotik asılılığı barədə kifayət qədər məlumatlı deyillər və müalicə mərkəzlərinə müraciət etməkdən çəkinirlər. Dövlət bu müalicə mərkəzlərinin fəaliyyətini tanıtmaq, narkomanların müalicə oluna biləcəyi haqqında məlumat vermək və insanlar arasında bu mərkəzlərə müraciət etməyin normal və faydalı bir addım olduğu mesajını yaymalıdır. Sosial media və digər kommunikasiya kanalları vasitəsilə geniş təbliğat kampaniyaları həyata keçirilə bilər.

Müalicə mərkəzlərinin təsirli fəaliyyəti üçün yüksək ixtisaslı mütəxəssislərə ehtiyac var. Dövlət, psixoloqlar, psixiatrlar, sosial işçilər və digər mütəxəssislərin narkomaniya üzrə xüsusi təlimlərdən keçməsini təmin etməlidir. Bu, müalicə mərkəzlərində çalışanların peşəkar səviyyəsini artıracaq, müalicənin keyfiyyətini yüksəldəcəkdir. Eyni zamanda, dövlət tərəfindən mütəxəssislərin daha yaxşı şəraitdə işləməsi üçün təlim və əmək haqqı məsələlərinə də diqqət yetirilməlidir.

Müalicə mərkəzləri yalnız fiziki və psixoloji müalicə ilə kifayətlənməməli, həm də narkomanların müalicə prosesindən sonra yenidən cəmiyyətə inteqrasiya etmələrini təmin etməlidir. Dövlət işə qəbul proqramları, təhsil və sosial xidmətlər, mentorluq dəstəyi və sosial adaptasiya proqramları vasitəsilə narkomaniyadan sağalan insanlara dəstək olmalıdır. Bu, onların sosial və psixoloji rifahını bərpa etməyə, cəmiyyətə faydalı fərdlər kimi geri dönmələrinə kömək edəcəkdir".

Klinik psixoloq sonda onu da dedi ki, narkomaniya yalnız asılı olan şəxsə deyil, həm də onun ətrafındakılara təsir edir: "Dövlət narkomanların ailələrinə də psixoloji dəstək verməlidir. Bu dəstək çərçivəsində narkomanın müalicə prosesində ailə üzvlərinin necə dəstək olacağına dair təlimatlar verilməli, onlara bu çətin dövrü aşmaqda kömək edilməlidir. Ailə və cəmiyyət dəstəyinin müalicə prosesində önəmli rolu vardır. Narkomaniyanın müalicəsinin əlçatan olması dövlətin sağlam cəmiyyət yaratmaq məqsədini güdməsi baxımından kritik əhəmiyyət daşıyır. Dövlətin bu sahədə atacağı addımlar, narkotiklərdən asılı olan şəxslərin müalicəyə müraciət etməsini asanlaşdıracaq, müalicənin keyfiyyətini artıracaq və cəmiyyətin narkomaniyaya qarşı mübarizəsini daha effektiv edəcəkdir. Dövlət narkotik asılılığının müalicəsi üçün yalnız fiziki xidmətləri deyil, həm də psixoloji və sosial dəstək tədbirlərini nəzərə alaraq, bu prosesin hərtərəfli və uzunmüddətli olmasını təmin etməlidir".

**Hazırladı:**
**Fuad BİLƏSUVARLI**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında çap olunur

# Gəncədə yararsız avtobuslar...

## Sakinləri marşrut avtobusların köhnə olmasından şikayətçidir






**Gəncə şəhərinin bir qrup sakini tərəfindən "Hürriyyət" qəzetinin redaksiyasına şikayət məktubu daxil olub. Sakinlər Gəncədə marşrut xətlərində 1992-1993-cü illərdən qalma sınıq-salxaq avtobusların fəaliyyət göstərməsindən şikayət edirlər:**

"Hörmətli redaksiya!

Sizdən xahiş edirik ki, illərdir mövcud olan problemimizi işıqlandırasınız.

Diqqətinizə çatdıraq ki, Gəncə şəhərində ictimai nəqliyyatın vəziyyəti bərbad gündədir. Avtobusların əksəriyyəti 1992-1993-cü illərdən qalmadır, içləri görünüşlərindən də bərbad gündədir. İçəridə qazın və kirin iyisindən oturmaq mümkün deyil.

Sürücülərə məcburiyyətdən bu maşınları idarə edirlər. Siqaret çəkməyə və yaxud yemək yeməyə belə, vaxtları olmur.

Gəncədə dayanacaqlar da bərbad gündədir. Kim harda istəyir, orada da avtobusu saxlatdırır.

Bildiyiniz kimi, Gəncə Azərbaycanın ikinci böyük şəhəridir. Lakin burda vəziyyət ürəkaçan deyil. İş yox, nəqliyyat bərbad gündə, yollar dağılır. Bir sözlə, şəhər baxımsız vəziyyətdədir.

Sürücülərin hər biri gün ərzində 14-15 saat işləyirlər. İstirahət vaxtları belə, yoxdur. Həm maşın sürür, həm də çörək yeyirlər.

Bu məsələyə diqqət ayrılmalı, ciddi tədbir görülməlidir. Vaxt problemi olduğu üçün sürücülər də maşını təhlükəli idarə edirlər.

Gəncə şəhərində 3-4 yeni avtobus var ki, onların daxili və xarici görünüşləri normaldır, amma onlar da vaxtla əlaqədar olaraq təhlükəli idarə edirlər. Dispeçer sadəcə yolun qırağında durub, pul yığmaq üçün fəaliyyət göstərir. Əhalini fikirləşən yoxdur. Üstəlik, bu cür yararsız avtobuslarda gediş haqqının 50 qəpik olması da çoxdur.

Daha bir vacib məsələ isə odur ki, axşam saat 8-dən sonra şəhərdə avtobus tapmaq mümkün olmur. Bir çoxları planı təhvil verdiyi üçün evinə gedir, əziyyət çəkən sakinlər olur. Biz sakinlər sizin qəzet və sayt vasitəsilə Yerüstü Nəqliyyat Agentliyinə müraciət edirik. Xahiş edirik, bu yaman günlü avtobusları şəhərdən çıxarsınlar.

Onu da qeyd edək ki, rayonlarda ictimai nəqliyyat daha bərbad gündədir".

Məsələ ilə bağlı Yerüstü Nəqliyyat Agentliyinin mətbuat xidməti ilə əlaqə saxladıq. Qurumdan bildirildi ki, regionlarda ictimai nəqliyyatda sərnişinlərə göstərilən xidmətlərin təhlükəsizlik və keyfiyyət baxımından yüksək standartlara çatdırılması məqsədilə marşrut xətləri təhlil edilir və avtobus parkının yenilənməsi diqqət mərkəzində saxlanılır: "Daşıyıcı şirkətlər qarşısında sərnişindaşıma tələblərinə cavab verməyən o cümlədən köhnə, istismara yararsız avtobusların yeniləri ilə əvəzlənməsi ilə bağlı tapşırıqlar qoyulur. Hazırda ölkənin bütün rayon və şəhərlərinin nəqliyyat şəbəkəsi geniş təhlil olunur və nəticələrə uyğun olaraq marşrut xətləri mərhələli qaydada müsabiqəyə təqdim edilir. Müsabiqənin şərtlərindən biri də avtobusların daha yeni olmasıdır.

Qeyd edək ki, Gəncə şəhərində ictimai nəqliyyat şəbəkəsinin optimallaşması, avtobus parkının yenilənməsi, sərnişindaşıma keyfiyyətinin yaxşılaşdırılması və sərnişin məmnunluğuna nail olunması istiqamətində sərnişindaşımaya 18 yeni və müasir avtobus cəlb edilib. 58-60 sərnişin tutumlu avtobuslar 2018-ci ilin istehsalıdır və ekoloji təmiz avro-6 standartlarına cavab verir. Avtobusların yenilənməsi mərhələli şəkildə davam etdiriləcək".

**Jalə FAMİLQIZI**



# Qələbələrimiz kimi, faciələrimiz də keçmişi unutmağa qoymur...

## 1997-ci il, may ayının 15-də Gəncədə qəzaya düçar edilən "Jak-40" təlim təyyarəsində həlak olan 6 pilotu unutmadıq, untmayacağıq

**Dekabrın 25-də "Azərbaycan Hava Yolları" aviaşirkətinə məxsus olan J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən "Embraer 190" təyyarəsi Rusiyanın qəfil hücumuna məruz qaldı. Nəticədə, ciddi zədə alan təyyarəmiz təcili eniş zərurəti ilə bağlı Qazaxıstan istiqamətinə yön alaraq, Aktau şəhəri yaxınlığında qəzaya uğradı. Bu qəza təkcə Azərbaycan xalqını yox, bütün dünyanı silkələdi. Millətindən, dinindən asılı olmayaraq, hər bir əcnəbi vətəndaş xalqımızın dərdinə şərik çıxdı, qəzaya səbəb olan Rusiya tərəfini sərt bir şəkildə qınadı.**

Təbii ki, bu faciə ən çox da ölkəmizdə böyük kədərə səbəb oldu. Günahsız insanların faciəli ölümü hər birimizi dərindən sarsıtdı. Təsadüfi deyil ki, qəza zamanı sərnişinlərə təskinlik verməyə çalışan baş bələdçi Hökümə Əliyevanın "hər şey yaxşı olacaq" sözləri hələ də qulaqlarımızdan getmir. Eləcə də qəza nəticəsində təyyarədə olan 67 nəfərdən 38-nin dəhşətli ölümü bu gün də gözümüzün önündədir. Xüsusilə, qəzada həlak olan 23 nəfər azərbaycanlının hər birini oz yaxınımız, doğmamız kimi unuda bilmirik. Məsələn, hər iki valideynini itirən bacı-qardaşın, qızına baş çəkməyə gedən ananın, çörək pulu qazanmağa gedən 26 yaşlı gəncin, o cümlədən təyyarədə tək olan 13 yaşlı Məhəmmədəlinin və s. faciəvi sonu qəlbimizi ağrıtdı. Allah ölənlərə rəhmət eləsin, yaralılara isə şəfa versin!



Əlbəttə, hər bir hadisə, istər faciə, istər də xoş bir anı olsun, keçmişdəki bənzər olayları bir daha xatırladır, illər öncə baş verənləri yenidən göz önünə sərir. Dekabrın 25-də AZAL-a məxsus "Embraer 190" təyyarəsinin qəzaya uğraması da illər öncə baş verən daha bir faciəmizi bizlərə xatırlatdı. Təbii ki, söhbət 1997-ci il, may ayının 15-də qəzaya düçar edilmiş "Jak-40" təlim təyyarəsindən gedir. Hansı ki, Gəncədə yaşanan bu faciə zamanı 6 nəfər gənc pilotumuz - Əliyev Tanrıverdi Qədir oğlu, Həsənov Fərhad Ələddin oğlu, Əliyev Namiq Muxtar oğlu, Abbasov Rauf Faiq oğlu, Cəfərov Valeh Vaqif oğlu, İbrahimov Salman Nazim oğlu dünyasını dəyişmişdi. Bu dəhşətli faciə sonuncu qəzayadək bəlkə də çoxları tərəfindən udulsa da, Gəncə sakinləri heç bir zaman o qəhrəmanların mərdliyini, igidliyini unuda bilmir...







Bəli, 1997-ci il, may ayının 15-də Gəncə şəhərinin üzərini "qara buludlar" almışdı. Şəhəri bir anlıq qorxunc titrəmə sardı. Sanki zəlzələ baş vermişdi. Əslində isə, ağıllara gəlməyən faciə yaşanmışdı. Azərbaycan xalqı həmin gün 6 igidini itirmişdi. Hansı ki, onların hər biri bu gün haqlı olaraq Milli qəhrəman adı verilən "Embraer 190"-nın ekipaj üzvləri kimi, ölümün gözünə dik baxmışdılar. Təyyarə yaşayış binasına çırpılma təhlükəsi yaratsa da, pilotlar heç bir sakinə, heç bir binaya zərər verməmək üçün Gəncə şəhərində yerləşən, köhnə maşın bazarı adlanan əraziyə eniş etməyə çalışmışdılar. Yəni onlar özlərini fəda edərək, mülki əhalini təyyarə qəzasının dəhşətli sonucundan xilas etmişdilər.




Elə onda da bu faciəyə bütün vətəndaşlarımız ağladı. Hər biri həmin 6 nəfəri öz doğması, yaxını bildi. Təsadüfi deyil ki, həmin qəzada həlak olanlar Gəncə şəhərində yerləşən Şəhidlər Xiyabanında dəfn olundular, daha sonra Gəncədəki köhnə maşın bazarı adlanan ərazidə onların abidəsu ucaldıldı. Onların xatirəsi bu günə qədər də qəlblərdə yaşayır, abidələri tez-tez gəncəlilər tərəfindən ziyarət olunur.

**Jalə FAMİLQIZI**

**P.S. İnsan Tanrının yaratdığı ən böyük möcüzədir. Hər kəs öz ömrünü adi qaydada da yaşaya, heç bir iz qoymadan dünyadan gedədə bilər. Amma elə insanlar da var ki, qısa bir ömür yaşayır, lakin unudulmaz əməlləri ilə əbədiyyətə qovuşur. Bununla da özündən sonrakı nəsillərə örnək olur. Bu insanlar vətəni, torpağı, milləti bütün insanlara qəhrəmanlıqları ilə sevdirməyi bacarırlar. Onlar bir anın içərisində xalqın qəhrəmanına çevrilir, səmalarda məskən salırlar. İstər Gəncədə qəzaya uğrayan "Jak-40" təlim təyyarəsinin, istər də AZAL-a məxsus "Embraer 190"-nın pilotları da məhz belə qəhrəmanlardandır.**

Hürriyyət
Sərbəst
SİZİN ÜÇÜN QƏZET
№02 (3341) 14 Yanvar / 2025-ci il
www.hurriyyet.az; / hurriyyet@mail.ru


Xəstəxananın həyətinə xeyli adam toplaşmışdı. Qadınlar bir tərəfdə, kişilər başqa bir tərəfdə öz aralarında asta-asta xəstəxananın reanimasiya palatasında yatan xəstədən danışırdılar. Qadınlardan biri, deyəsən xəstənin anası idi, ortalığa “yazıq oğlum nə gün gördü ki?” deyə süni şəkildə ağlamısındı. Onun artistlik etdiyini, oğlunun halına ürəkdən yanmadığını təcrübəsiz insanlar belə, asanlıqla sezərdi.



# Artıq adam

Azad arvadının oynaq xasiyyətindən narahat olsa da, bunu üzə vurmurdu. Bəzən əsaslı qısqanclıq onu narahat edir, ancaq uşaqları naminə çox da dərinə getmirdi. Həyat yoldaşının gözü küçələrdən yığışmırdı. Yolda qoşa getdikləri vaxt belə, Azaddan yaraşıqlı və imkanlı birini görəndə ona işvə-naz satmaqdan çəkinmirdi. Bəzən Azadın bunu hiss etməsini belə, vecinə almırdı...



**Xəstəxananın həyətinə xeyli adam toplaşmışdı. Qadınlar bir tərəfdə, kişilər başqa bir tərəfdə öz aralarında asta-asta xəstəxananın reanimasiya palatasında yatan xəstədən danışırdılar. Qadınlardan biri, deyəsən xəstənin anası idi, ortalığa “yazıq oğlum nə gün gördü ki?” deyə süni şəkildə ağlamısındı. Onun artistlik etdiyini, oğlunun halına ürəkdən yanmadığını təcrübəsiz insanlar belə, asanlıqla sezərdi.**

**Bəzənib-düzənmiş, ətrafdakılara naz satmaqla məşğul olan qız, deyəsən bacısı idi, sanki anasına həm cavab, həm təskinlik, həm də özlərinə bəraət qazandırmaq kimi “gunah özündədir, az içərdi”, deyə mızıldandı.**

**Digər bir cavan qadın sakitcə başını aşağı salıb, dərin xəyallara getmişdi. Üzündə dərin bir peşmançılıq hissi vardı. Sanki bu günədək etdklərinin yanlış olduğunu indi anlamışdı. Amma artıq çox gec idi. Sonrakı peşmançılıq heç vaxt fayda vermir. Bu qadın, deyəsən, xəstənin həyat yoldaşı idi. Yanında 7-10 yaşlarında iki oğlan uşağı dayanmadan göz yaşı axıdırdılar. Hamının başı söhbətə qarışdığından onlara təsəlli vermək heç kəsin yadına düşmürdü.**

**Digər yaxın-uzaq qohumlar da xəstədən daha çox onun ana-bacısının əziyyət çəkərək xəstəxanaya gəlmələrindən narahat olduqlarını ehyam vururdular.**

*(Əvvəli ötən sayımızda)*

Xəstənin adı Azad idi. Azad onunla bir məhlədə böyümüşdü, uşaqlıqdan yaxın dost idilər. Azad yeganə ürək qızdırdığı dostuna öz ailəsi haqqında ətraflı danışmışdı. Onlar üç bacı, iki qardaş idilər. Ailələri imkanlı, valideynləri təhsilli və cəmiyyətdə hörmət qazanmış insanlardı. Demək olar ki, heç bir sosial problemləri yox idi. Azadın qardaşı ailənin ilki olduğundan, ona xüsusi bir münasibət vardı. Valideynlər, o cümlədən onların ağzına baxan bütün qohumlar Azadın böyük qardaşını sevir, ona qayğı göstərirdi. Sanki bu evdə tək bir oğlan usağı varmış. Əslində, bu Azadı çox sevindirirdi, çünki o, böyük qardaşını çox sevirdi, onun üçün ölümə getməyə belə, hazır idi.

Azad uşaqlıqdan qardaşı cəzalanmasın deyə, onun bütün günah işlərini öz üstünə götürdüyündən, buna görə pis ad çıxarmışdı. Əksinə, özünün bütün yaxşı islərini qardaşının adına yazırdı. Hami elə bilirdi ki, Azad vecsiz, çətin tərbiyə olunan, qabiliyyətsiz bir usaqdır. Böyük qardaş isə, əksinə, tayfanın göz bəbəyi, ailənin yeganə ümid yeri idi.

Böyük qardaş həqiqətən dərslərini yaxşı oxuyurdu, amma çox təkəbbürlü, eqoist, özünə vurğun, ərköyün biri idi. Azaddan çox-çox yaraşıqlı, fiziki cəhətdən daha yaxşı inkişaf etmişdi. Azad onun kölgəsində yox kimi idi. Ata-ana yalnız böyük qardaş haqqında düşünür, onun bütün arzu və istəklərini yerinə yetirirdilər.

Artıq böyük qardaş universitetin hüquq fakültəsinin son kursunda idi. Tezliklə dövlət imtahanı verib, çoxdan arzuladığı hakimlik fəaliyyətinə başlamağı düşünürdü. Atası da lazım olan adamlarla danışmışdı, onun hakim olması ilə bağlı heç bir problem olmayacaqdı. Atası böyük qardaşa yağın içində bir “Mercedes” də bağışlamışdı. Azad yalnız qardaşının maşınını yumaq lazım gələndə maşına toxuna bilirdi.

Azad nə qədər çalışsa da, universitetə daxil ola bilməmişdi. Ona görə, erkən yaşlarında özünə bir peşə seçib, əmək fəaliyyətinə başlamışdı. Qardaşından qabağa düşüb evlənmişdi. Ataanası onun böyük qardaşından qabağa düşməsinə pis baxdıqlarından, Azada toy etməkdən imtina etmişdilər. Azad bundan incisə də, özünü günahkar bilmişdi. Həyat yoldaşı da xeyli gözəgəlimli, yaraşıqlı bir qiz idi. Azaddan çox, onun ailəsinə görə bu evliliklə razılaşmışdı. Amma evlənəndən sonra Azadla ailəsi arasında soyuqluq olduğunu biləndə xeyli peşman olmuşdusa da, taleyi ilə barışmışdı.

Azadın bir-birinin ardınca iki oğlu olmuşdu. Ona insan kimi baxan, təmənnasız sevgi və qayğı göstərən bu iki usağı və məhəllədəki uşaqlıq dostu idi. Azad özlüyündə oğlanları naminə yaşamaq qərarı vermişdi. O, valideynlərinin buraxdığı səhvi təkrarlamaq istəmirdi. Ona görə, lap uşaqlıdan oğlanlarını bir-birinə qarşılıqlı məhəbbət və qayğı hissi ilə tərbiyə edirdi.

Azad arvadının oynaq xasiyyətindən narahat olsa da, bunu üzə vurmurdu. Bəzən əsaslı qısqanclıq onu narahat edir, ancaq uşaqları naminə çox da dərinə getmirdi. Həyat yoldaşının gözü küçələrdən yığışmırdı. Yolda qoşa getdikləri vaxt belə, Azaddan yaraşıqlı və imkanlı birini görəndə ona işvə-naz satmaqdan çəkinmirdi. Bəzən Azadın bunu hiss etməsini belə, vecinə almırdı.

Günlər bu cür - gah kədər, gah qayğı ilə keçirdi. Azad öz ürəyini yalnız dostuna aça bilirdi. Onunla dərdləşir, dəfələrlə böyük qardaşı ilə fəxr etdiyini, onu çox sevdiyini, özünə arxa-dayaq bildiyini deyirdi. Hətta xəyallarında əlinə pul düşəcəyi halda qardaşına çox bahalı maşın alacağına da söz vermişdi.

Ata-anası, bacıları və qardaşı sanki Azadı görmürdülər, heç kəs onunla maraqlanmır, kirayədə qaldığı evinə gəlib-getmir, ad günlərində belə, onu yadlarına salmırdılar. Elə bil həyatda belə bir insan yox idi. Azad fərqinə varsa da, bu vəziyyəti normal qəbul edir, hər şeydə özünü günahlandırırdı. “Ali təhsil alsaydım, ata-anamin razılığı olmadan tez evlənməsəydim, ataanama daha çox qayğı göstərsəydim, yəqin ki, başqa münasibət görərdim”, - deyə düşünürdü.

Əslində, dostu Azadın ailəsini yaxşı tanıyırdı, onların eqoist, meşşan insanlar olduğunu bilirdi. Azada olan munasibət də bununla bağlı idi. Onlar heç bir ali təhsili olmayan Azadın onların övladi olmasından utanır, əksinə böyük oğlanları ilə bağlı hər fürsətdə ürək dolusu söz açırdılar.

Adi günlərin birində Azad pis xəbər eşitdi. Böyük qardaşı dostları ilə növbəti kef məclisindən gələndə yolda qəza törətmiş, maşınla bir nəfəri vurub öldürmüşdü. Gənclər hadisə yerindən qaçsalar da, maşını görən olmuşdu. Azad bu xəbəri eşidən kimi qaça-qaça qan-tərin içində atasigilə gəldi. Onsuz da Azaddan zəhləsi gedən valideynləri, ”nə var, at ölüb, itlərin bayramıdır? Qardaşının başına gələnlərdən sevinirsən?”, - deyə sərt baxışlarla sual etmişdilər. Daha sonra öz aralarında “Onun bütün əziyyəti boşa gedəcək. Həbsxanaya düşsə, bir daha hüquq sistemində işləyə bilməyəcək. Gərək, onu həbsxanaya qoymayaq. Amma necə?”, - deyərək, bu sualın cavabını tapmağa o qədər aludə olmuşdular ki, artıq Azadın orada olması tam yadlarından çıxmışdı. Azad yavaşca, ”Mən ölmüşəm ki, qardaşım həbs olunsun?!”, deyəndə atası təəccüblə üzünü ona çevirib, “Sənin nə kimi gücün, imkanın, hörmətin var ki, qardaşını həbs olunmaqdan xilas edəsən?”, - dedi.

*(Ardı var)*

**AZAD**

# Tarixin qayıdışı: facialər və dəhşətlər

## (Telman Orucovun yaradıcılığı haqqında düşüncələrim)



Allahverdi Eminov

**Mənim ensiklopedik informasiyaya malik və mənimsədiklərini yazıya alıb geniş oxucu auditoriyasına çatdıran Telman Orucovla "üçüncü" görüşüm olacaq-dır. Belə bir planım yox idi, onun nüfuzlu "525-ci qəzet"də silsilə məqalələrini oxuyanda və zəngin təəssüratla ayrılanda qərarımı dəyişdim.**

Elmi dərəcəyə və elmi vəzifəyə sahib olmaq şərt deyil. Gizlin deyil ki, elmlər nazirləri və doktorla-rımızın, habelə, professorlarımızın, akademiklərimizin sayı həndəsi silsilə ilə ço-xalmaqdadır. Amma Vətən elmimiz yerində saymaqdadır. Sovet dönəmindən son-rakı 20-25 il civarında Yusif Məmmədəliyev, Azad Mirzəcanzadə, Validə Tutayuq, Cəbrayıl Hüseynov, Əhməd Seyidov, Firudin Köçərli, Feyzulla Qasımzadə, Əbdül-əzəl Dəmirçizadə yetişməmişdir. Mən bu cərgəyə həmyerlimiz, azərbaycanlı Lüt-vi-Zadəni də məmuniyyətlə daxil edərdim. Professorlarımız, akademiklərimiz məhsuldar işləyirlər, saysız elmi məqalələr, kitablar çap etdirirlər, eləsi var hər həftədə, hər ayda geniş həcmli məqalələr, hətta kitablar ortaya qoyurlar. Beləleri məndən inciməzlər, oxuyub düşünürəm: Məsul vəzifə daşıdıqları, deputat olduqları təqdirdə haradan vaxt tapırlar? Mütəmadi rəsmi iclaslarda, müzakirələrdə, tədbirlərdə olduqları halda!.. Belə çıxır beləleri onlara etibar edilən vəzifələrə dırnaqarası baxırlar, kabinetlərində oturanda qapını bağlayırlar kimsə onları fikirdən ayırmasın!.. Vəzifə məsuliyyəti daşımaq sadə iş deyil. Mən tarixə ekskurs etdim və tarixi günümüzə "gətirdim", əsl alimlər yaradıcılığı vəzifəyə qurban verməmişlər, populyarlıq dalısınca getməmişlər, çün, elmi yaradıcılıq arxivdə, yaxud kitabxanada oturmaq, axtarışlar aparmaq, əlyazma üzərində təkrar işləmək və s. proseslərdən sonra başa gəlir. Bir də... istedad, mühakimə, ilham elmdə də mövcuddur, həvəslə, elmi fikir lakonik dillə oxucuya çatdırmaq əzmi lazımdır. Bəli, yazan şəxsin fərdi üslubu seçilməlidir, oxucu həmin müəllif üçün darıxmalıdır. Mən uzun illər mətbuatda və nəşriyyatda çalışdığım üçün müəllif savadına və qələminə bələdəm, otuz-qırx yaşlarına qədər bir vərəq də "korlamayan"lar bu gün alimləşmişlər, hətta elmlər doktoru səviyyəsinə çatmışlar... Onlar bu ada, vəzifəyə necə gəldilər? Suala cavab tapmaq istəməzdim.

Fikrimə qayıdıram: Telman Orucov haqqında lap çoxdan təsəvvürə mali-kəm: mütaliəsi, ixtisası, fəaliyyəti, fərdi üslubu, obrazlar təfəkkürü və s. onun barəsində fikir söyləməyə haqq verir. Uzun illərdir həvəslə oxuduğum və faydalandı-ğım "525-ci qəzet"də zəngin məqalələrlə çıxış edir. Belə ki, eramızdan əvvəlki Dünya tarixi, onun hökmdarları, ədəbiyyatı və incəsənəti haqqında yazır, öz şəxsi mühakiməsini oxucularla bölüşdürür. Bu barədə yazdığım üçün təfərrüata var-mıram. Son vaxtlarda Telman Orucov tarixin faciəvi və ibrətli olaylarını, hətta çağ-daş tarixçilərimizin bilmədikləri, toxunmadıqları faktları şərh edir.

Mən ixtisasca eyni zamanda tarixçiyəm, "tarix - filologiya" fakultəsini bitir-mişəm, üç il orta məktəbdə "SSRİ tarixi"ndən dərs demişəm. Mənim tarix elmləri doktorları, professorlar Cəfər İbrahimov, Şükür Sadıqov, Məmməd Şıxlı, Yunis Ələsgərov kimi müəllimlərim olmuşlar. Cəfər İbrahimov Azərbaycan tarixinin qədim dövrlərindən Sovet hakimiyyəti Azərbaycanda qurulana qədər mühazirələr oxumuşdur, "qaraqoyunlular" və "ağqoyunlular"ın tarixinin ilk tədqiqatçısı idi. Eləcə də adını çəkdiyim tarixçi - alimlər maraqlı mühazirələrin müəllifləriydi. Lakin onlar daha dərin qatlara enə bilmədilər, çün həm arxivlər qapanmışdı, həm də Sovet ideologiyası hakim idi. Təsəvvür edək ki, "Azərbaycan tarixi" "SSRİ tarixini"-nin tərkibində "kurs" kimi tədris olunurdu. Bu gün Dünya tarixinin ibrəta-miz hadisələri, hökmdarları, ədəbiyyatı və incəsənət aləmi ilə tanışlıq problem deyil. Belə bir yanaşmada Telman Orucovun araşdırmaları haqqında danışmağa dəyər.

Tarixdə yaşamış beş (5) epoxa - ibtidai icma quruluşundan Sovet sistemi də daxil olmaqla epoxalardan danışan tarixçilər, iqtisadçılar, pedaqoqlar quldarlığa etinasız yanaşmış, bu dövrü aşağılamışlar, daha doğrusu, təhrif etmişlər. Əslində belə deyil. Telman Orucov quldarlıq haqqında orijinal fikirlər yazmışdır: Quldarlığın antik dövrlərdə Avropada mövcudluğunu, Şərqdə zəif inkişafını qeyd edir və piramidaların qullar tərəfindən yox, kəndlilər hasilə gətirmişlər. Qədim Yunanıstanda və Qədim Romada quldarlıq surətlə yayılmışdır. Qulların arasında həkimlər və müəllimlər vardı. Azad olmuş qullar - libertinlər var - dövlət sahibləriydi, xüsusilə, qladiator qullar şöhrətə yiyələnmişdi. Erkən Orta əsrlərdə aqrar quldarlıq mövcud olsa da, iqtisadi cəhətdən süquta uğradı, yerində, yeni IX əsrdə təhkimçilik yarandı. İtaliyada və Florensiyada quldarlıq qeyri - məhdud şəkildə inkişaf etdi, onlar Aralıq dənizi və Qara dənizi sahillərindən gəti-rilirdi, bu sahədə Afrika istisnalıq yaratmırdı. Portuqaliyalılar XV əsrdə Afrikaya göz dikdilər, XVII əsrin ortalarında niderlandlılar Qərbi Afrikaya üz tutdular, eyni zamanda Hind okeanındakı portagiz ticarətinə nəzarəti əllərinə aldılar: "1602-ci ildə yaradılan Holland Şərqi İndiya Kompaniyası Şərqi Afrikada və Xoş Ümid Bununda məskənlər saldılar, onları daimi koloniyaya çevirdilər", - müəllif yazır. Avropalılar Afrikanı kəşf etdilər, qitənin daxilindəki əraziləri də ələ keçirdilər, lakin onların gözü yaxınlığında yaşayan əhalidə idi, bunun nəticəsi olaraq XVI-XVII əsrlərdə qul ticarətinin şəbəkəsi genişləndi, minlərlə, milyonlarla afrikalılar güc vasitəsilə Avropaya daşındı, Yeni Dünya plantasiyalarına aparıldı. Belə ki, XV əsrdə quldarlıq möhkəm səviyyədə yüksəldi, qul bazarları yarandı. 1490-cı ildə Amerika kəşf edildi. (Haşiyə çıxım ki, Amerikanın kəşfi Nəsrəddin Tusinin (1201-1274) məşhur "Xəritəsi" hesabına baş verdi. Cənubi Amerikada şə-kər qamışı plantasiyaları salındı və Qərib adalarında becərilməyə başladı. Bu bitki gərgin



> Tarixdə yaşamış beş (5) epoxa - ibtidai icma quruluşundan Sovet sistemi də daxil olmaqla epoxalardan danışan tarixçilər, iqtisadçılar, pedaqoqlar quldarlığa etinasız yanaşmış, bu dövrü aşağılamışlar, daha doğrusu, təhrif etmişlər. Əslində belə deyil. Telman Orucov quldarlıq haqqında orijinal fikirlər yazmışdır: Quldarlığın antik dövrlərdə Avropada mövcudluğunu, Şərqdə zəif inkişafını qeyd edir və piramidaların qullar tərəfindən yox, kəndlilər hasilə gətirmişlər. Qədim Yunanıstanda və Qədim Romada quldarlıq surətlə yayılmışdır...

əmək hesabına başa gəlirdi, amerikalılar tənbəl idilər, onlara izafi qüvvə lazımdı. 1518-ci ildə İspan gəmiləri qulları birbaşa Amerikaya daşıyırdılar. Sonrakı iki əsr ərzində qul ticarəti dramatik şəkil aldı: "Üçbucaq ticarət Avropanı və Afrikanı amerikalılarla birləşdirdi. Avropa ölkələrindən Afrikaya manufaktura malları gə-tirirdi, qullara dəyişdirilirdi. XVI əsrdə 275 min afrikalı qula çevrilib iki qitəyə idxal edilmişdi". XVIII əsrdə qul mübadiləsi 6 milyona yüksəlmişdi. Bütövlükdə 10 milyondan artıq qul Amerikaya daşınmışdı. Haşiyə çıxaraq qeyd edərdim ki, XVI-XIX əsrlər arasında daşınan qulların yarısı ingilis gəmilərinin pa-yına düşürdü. "1960-cı illərin əvvəllərində Əlcəzairin ilk prezidenti olmuş Əhməd ben Vella iddia edirdi ki, qul ticarəti Afrika əhalisinin 100 milyon nəfərə qədər azalması kimi, qitəyə dəhşətli ziyan vurmuşdur". Quldarlıq epoxasına dönüş Tel-man Orucovun tarixə etdiyi əlavə faktlardır, gedib dərin mənbələrə çıxır.

Telman Orucovun tarixi şəxsiyyətlərin, xüsusilə, II Dünya müharibəsindəki roluna və mövqeyinə dəlillərlə yanaşması orijinallığı ilə seçilir. Açığı, bu yazılan-lardan (İ.Stalin və U.Çorçill) çox vaxt təhrif olunmuş mülahizələrlə qarşılaşırıq. Telman Orucov və bu simalardan fərqli olaraq İosif Stalin (1879-1953) və Uinston Çorçillin (1874-1965) siyasi portretlərini və dünyagörüşlərini ümumiləşdirmişdir. Türk xalqlarının qənimi - mən belə düşünərdim - İ.Stalin 30 ilə yaxın SSRİ kimi çoxmillətli və geniş ərazili SSRİ-nin "dahi rəhbəri"-ni dinc yaşamağı sevən, alın təri ilə mal-dövlət qazanan kəndliləri "qolçomaq" adı ilə, sexlərdə qantər tökən fəhlələri, intellektilə yeni quruluşu alqışlayan ziyalıları, habelə ədəbiyyat və incə-sənət adamlarını güllələnənlərin, yaxud Sibirə sürgün edilənlərin lideri kimi tanı-yırıq. Ukraynada, Volqaboyunda, eləcə də digər regionlarda aclıq yaradan rəhbər kimi antihumanist adlandırırıq, İ.Stalin ölkəni vəziyyətdən xilasını ağır sənayenin inkişafında görürdü. 1930-cu illərdə sənaye inkişafı olduqca sürətlə inkişaf edirdi, çoxlu yeni zavodlar tikilir, yeni şəhərlər, qəsəbələr salınırdı. Ümumi daxili məhsul istehsalının artım sürəti olduqca yüksək idi və bu sahədə heç bir inkişaf etmiş dövlət SSRİ ilə müqayisə oluna bilməzdi. Amerika tarixçisinin SSRİ-nin iqtisadi inkişafına həsr olunmuş kitabında göstərilirdi ki, ilk sosialist dövlətinin iqtisadi nailiyyətləri Qərbdə möcüzə kimi görünürdü. Təəssüf ki, sənayeləşmənin yüksək sürəti böyük qurbanlara səbəb olan kənd təsərrüfatının kollektivləşdirilməsi ilə müşayiət olundu. Stalin inanırdı ki, sənayenin üstün yüksəlişi, kənd təsərrüfatının kollektivləşdirilməsi ilə meydana gələn məhsul istehsalının artımı hesabına əldə ediləcəkdir. Kolxozların yaradılmasında ilk addım, qolçomaqların və varlı kəndli-lərin ləğv olunması oldu. 1930-cu ildən başlayaraq onlar Sibir düşərgələrinə gön-dərilirdi. Özəl mülkiyyətin ləğv edilməsi həmçinin kommunist idealına uyğun idi.

***(Ardı var)***

# Şəhid anasını təhqir etdi, şəhid qardaşını qanunsuz olaraq işdən çıxardı...

## Qəbələ Rayon Mərkəzi Xəstəxanasının direktor müavini Fikrət Cəfərov haqda şok iddialar




**Qəbələ rayonu, Kiçik Əmili kənd sakini, şəhid anası Bayramova Dilbər Ağaşirin qızı tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Prezident İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya və TƏBİB-in icraçı direktoru Vüqar Qurbanova müraciət edən şikayətçinin məktubunu olduğu kimi dərc edirik:**

"Şəhid anası olaraq xahiş edirəm ki, şikayətimi obyektiv araşdırıb, bizi təhqir edib alçaldan Qəbələ Rayon Mərkəzi Xəstəxanasının direktorunun müavini, həkim Fikrət Cəfərov barəsində qanunu tədbirlər görəsiniz.

Bildirim ki, 23 dekabr 2024-cü il tarixdən Qəbələ Rayon Mərkəzi Xəstəxanasının terapeya şöbəsində stasionar müalicə olunuram. Oğlum İntiqam əşyalarımı gətirəndə avtomobilini xəstəxananın həyətində saxlayıb ki, aparmaq asan olsun. Bunu görən həkim Fikrət Cəfərov oğlumu acılayıb, üstünə qışqırıb ki, avtomobili orada saxlamaq olmaz. Oğlum İntiqam ona izah edib ki, müalicə olunan xəstə anamın yanına əşyalarını gətirmişəm, tez təhvil verib gedirəm.

Həkim Fikrət Cəfərov səsini başına atıb, səs-küy yaradıb. Sonra mən ona irad bildirdikdə, "şəhid anası olmursan, nə olursan ol, orada maşın saxlamaq olmaz", - deyə yüksək səslə bizi təhdid etdi. Mən həkim Fikrət Cəfərovun belə həyasızlığına görə sanki şoka düşdüm.

Qeyd edim ki, oğlum İntiqam 4 ildir mühafizə polisində işləyir və Qəbələ Rayon Mərkəzi Xəstəxanasında xidmətə çıxırdı. Bir neçə dəqiqəlik avtomobili ərazidə saxladığı üçün həkim Fikrət Cəfərovun bizi təhdid etdiyi bəs deyilmiş kimi, oğlum İntiqamı xəstəxanadan işdən uzaqlaşdırdı.

Mən bunu şəhid ruhuna təhqir, hörmətsizlik və ədəbsizlik hesab edirəm. Oğlum İntiqamın avtomobili bir neçə dəqiqə orada dayanmaqla dünya dağılmayacaydı və burada heç bir qanun pozuntusu da yoxdur. Sadəcə, direktor müavini Fikrət Cəfərov özünü kollektivə və camaata göstərmək üçün belə bir kobud hərəkətlər etdi.

Mənim övladım Coşqun Ənvər oğlu Bayramov Vətən müharibəsində torpaqlarımızın azadlığı uğurunda canından keçdi ki, Fikrət Cəfərov kimiləri özlərinə var-dövlət toplayıb rahat yaşasın, şəhid ailəsini təhqir etsin, xidmətdən kənarlaşdırsın?

Belə bir qanunsuzluqla üzləşsəm də, ümidimi üzməmişəm. Ona görə ki, Azərbaycan Respublikasının İlham Əliyev kimi ədalətli Prezidenti və Mehriban Əliyeva kimi mərhəmətli birinci xanımı var. Onlar daima




şəhid ailələrinə diqqət və qayğı göstərir. İnanıram ki, bu müraciətim də obyektiv araşdırılıb, lazımı tədbirlər görüləcək.

Hər bir həkim və ya hər hansı dövlət qulluqçusu etik davranış kodeksinə riayət etməklə, vətəndaşlarla mehriban davranmalıdır.

Mən Prezident İlham Əliyevdən, Mehriban xanım Əliyevadan və TƏBİB-in İcraçı direktoru cənab Vüqar Qurbanovdan xahiş edirəm ki, şikayətimi obyektiv araşdırıb, şəhid ailəsi ilə kobud rəftar edib, təhqir etdiyi üçün Qəbələ Rayon Mərkəzi Xəstəxanası direktorunun müavini, həkim Fikrət Cəfərovun barəsində qanuni tədbirlər görəsiniz".

**Hazırladı: Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**

# "Zəfər parkı"nda müqaviləsiz işlədildi, xəsarət aldı, təzminat ödənilmədi




**Xətai rayonu, NZS qəsəbəsi, Aşıq Qurban küçəsi 25 ünvanında yaşayan Həsənov Əfsan Əli oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, Xətaidəki "Zəfər parkı"nda işləyən zaman ciddi xəsarət alsa da, ona təzminat ödənilmir:**

"Mən, Həsənov Əfsan Əli oğlu, yazaraq xahiş edirəm ki, problemimi işıqlandırasınız.

Hazırda yuxarıda qeyd etdiyim ünvanda kirayədə yaşayıram. Oktyabrın 22-də "Ağ şəhər"də yerləşən "Zəfər parkı"nın tikintisini aparan şirkətlərdən birinə (adını dəqiq bilmir, çox güman ki, "PMD Projects" şirkətindən söhbət gedir - müəl.) işə qəbul olmuşam. Oktyabr ayında qolumun üstünə dəmir



düşüb, qolum sınıb. Şirkətdən mənə bildirdilər ki, heç yerə getmə, şikayət etmə, təzminatın ödəniləcək. 3 aylıq pul ödəyəcəklərini bildirmişdilər. Lakin hələ də ödəmirlər. Mən müqavilə ilə işlədiyimi düşünürdüm, sən demə aldadılmışam.

Məsələ ilə əlaqədar polisə müraciət etdim. Müstəntiq təyin olundu. 2 aydır gözləyirəm, lakin bir xəbər yoxdur. Aqil adlı müstəntiq mən zəng vurub bildirdi ki, gəl, sənin ödənişini etdirəcəm.

Getdim, otağında mübahisəmiz düşdü, məni təhqir etdi. Belə ki, cibindən 100 manat pul çıxarıb, təhqiramiz şəkildə mənə uzatdı. Mən istəmədiyimi bildirəndə isə, hirslənərək məni təqhir etdi. Halbuki, müdirim Samir əvvəlcədən mənə demişdi ki, müstəntiqlə danışın, razılaşmışam.

Qolum qırılıb, başqa heç yerdədə işləyə bilmirəm. Səlahiyyətli qurumlardan xahiş edirəm ki, məni aldadıb müqaviləsiz işlədən, "Zəfər parkı"nın tikintisində iştirak edən şirkət haqqında tədbir görülsün".

Məsələ ilə bağlı Baş Prokurorluğun mətbuat xidməti ilə əlaqə saxlamağa çalışdıq. Lakin dəfələrlə mətbuat xidmətinə əlimizdə olan şikayətləri yönləndirsək də, cavab ala bilmirik.

**Jalə FAMİLQIZI**

**Redaksiyadan: Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.**




# Qazax sakini oğluna əlillik verilməməsindən şikayətlənir

## "Oğlum Polad Həşimovun yanında yaralanan və yeganə sağ qalan "maxe" əsgərdir"

**Qazax rayonu, Hüseynbəyli kənd sakini Mehtiyev Elbrus Səfər oğlu tərəfindən "Hürriyyət"in redaksiyasına şikayət məktubu daxil olub. Şikayətçi iddia edir ki, oğlu 4 ildir müalicə alsa da, hələ də ona əlillik dərəcəsi verilmir:**

"Oğlum Mehtiyev Vüqar Elbrus oğlu Tovuz döyüşlərində şəhid generalımız Polad Həşimovun yanında yaralanmış və yeganə sağ qalmış "maxe" əsgərdir. Müharibə başlayanda hospitalda müalicəsini yarımcıq qoyub, generalın qisasını almaq üçün döyüşlərə qatıldı. Kəlbəcərdən hərbi hospitala göndəriləlrək, yararsız kimi təxris olundu.

4 ildir müalicə alır. Ancaq hələ də əlilliyi verilməyib. Əvvəllər cavab gəlirdi ki, müalicəyə ehtiyacı var. 6 ay bundan əvvəl isə cavab gəldi ki, xəstəliyi əlillik meyarına uyğun gəlmir.

Qeyd edim ki, bir oğlu, bir qızı var. 4 il ərzində nə hökumət nümayəndələri, nə yerli icra hakimiyyətinin rəsmiləri onun ailəsi ilə maraqlanmayıb. Xahiş edirəm, mənim oğlumun səsinə səs verəsiniz".

Məsələ ilə bağlı Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsinin müdiri Tural Qurbanovla əlaqə saxladıq. O, bildirdi ki, Qazax rayon sakini 17.01.1997-ci il təvəllüdlü Mehtiyev Vüqar Elbrus oğlu əlilliyinin qiymətləndirilməsi ilə bağlı tibb müəssisəsi tərəfindən rəsmiləşdirilən "forma-88" göndərişi əsasında 25.04.2024-cü il tarixdə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyində əyani müayinə edilib: "Agentliyin həkim-ekspertlərinin əyani müayinəsi zamanı vətəndaşın hazırki sağlamlıq vəziyyətinin əlillik təyinatına əsas vermədiyi müəyyən edilib. Bu səbəbdən də Nazirlər Kabinetinin 13 may 2022-ci il tarixli 187 nömrəli qərarı ilə təsdiq edilmiş "Əlilliyin müəyyən olunması meyarları"na uyğun olaraq Diaqnoz əlillik əlaməti təyin etməməsi barədə qərar qəbul edilib".

**Aynurə MUSTAFAYEVA**